**“Unibank Kommersiya Bankı” Açıq Səhmdar Cəmiyyəti**

**Hər birinin nominal dəyəri 2.72 (iki manat yetmiş iki qəpik) manat olan 2 500 000 (iki milyon beş yüz min) ədəd adi adlı sənədsiz səhmlərin**

# EMİSSİYA PROSPEKTİ

**Bakı 2022-ci il**

Unibank
Sənin Bankın

# MÜNDƏRİCAT


BƏYANAT ........ 4
XÜLASƏ ........ 5
1. XƏBƏRDARLIQ ........ 5
2. EMİTENT BARƏDƏ MƏLUMAT ........ 5
3. SƏHMLƏR HAQQINDA MƏLUMAT ........ 15
4. RİSK FAKTORLARI ........ 16
5. TƏKLİF ........ 17
I HİSSƏ ........ 21
SƏHMLƏRİN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMATLAR ........ 21
1. EMİTENTİN AUDİTORLARI BARƏDƏ MƏLUMAT ........ 21
2. SEÇİLMİŞ MALİYYƏ MƏLUMATI ........ 22
3. EMİTENT BARƏDƏ MƏLUMAT ........ 22
"Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti ........ 22
4. EMİTENTİN BİZNESİNİN İCMALI ........ 24
5. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK ........ 28
6. EMİTENTİN ƏSAS VƏSAİTLƏRİ ........ 29
7. EMİTENTİN MALİYYƏ VƏ ƏMƏLİYYAT NƏTİCƏLƏRİNİN İCMALI ........ 29
8. EMİTENTİN KAPİTAL RESURSLARI ........ 31
9. TƏDQİQATLAR, LİSENZİYALAR VƏ PATENTLƏR ........ 32
10. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT ........ 33
11. GƏLİR PROQNOZU ........ 35
12. EMİTENTİN TƏSİSÇİLƏRİ, İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI ........ 35
13. EMİTENTİN İDARƏEDİLMƏSİNDƏ İŞTİRAK EDƏN ŞƏXSLƏRİN MÜKAFATLANDIRILMASI, İMTİYAZLARI VƏ DİGƏR KOMPENSASİYALARI ........ 40
14. İDARƏ HEYƏTİNİN İŞGÜZAR PRAKTİKASI ........ 40
15. EMİTENTİN İŞÇİ HEYƏTİ ........ 46
16. EMİTENTİN NİZAMNAMƏ KAPİTALINDA MÜHÜM İŞTİRAK PAYINA SAHİB OLAN SƏHMDARLAR ........ 46
17. AİDİYYƏTİ ŞƏXSLƏRLƏ ƏMƏLİYYATLAR ........ 48
18. EMİTENTİN MALİYYƏ MƏLUMATLARI ........ 50

Unibank
Sənin Bankın


19. EMİTENT HAQQINDA ƏLAVƏ MƏLUMATLAR ... 53
II HİSSƏ ... 63
SƏHMLƏR BARƏDƏ MƏLUMAT ... 63
1. ƏSAS MƏLUMAT ... 63
2. TƏKLİF EDİLƏN SƏHMLƏR HAQQINDA MƏLUMAT ... 65
3. TƏKLİFİN ŞƏRTLƏRİ ... 67
4. TİCARƏTƏ BURAXILMA VƏ ONUN TƏNZİMLƏNMƏSİ ... 70
5. TƏKLİF EDİLƏN SƏHMLƏRİN MÜLKİYYƏTÇİLƏRİ HAQQINDA MƏLUMAT ... 71
6. EMİSSİYA XƏRCİ ... 71
7. PAYIN AZALMASI ... 71
ƏLAVƏLƏR ... 72
AUDİT OLUNMUŞ MALİYYƏ HESABATLARI ... 72

Unibank
Sənin Bankın

Səhmlərin emissiya prospektinin tərtib edilməsində iştirak edən şəxslər və emissiya prospektində təqdim edilmiş məlumatlara dair

**BƏYANAT**

Biz aşağıda imza edənlər,

1. Bu Emissiya Prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27.01.2016-cı il tarixli, 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya Prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.

2. "Unibank" Kommersiya Bankı" ASC-nin hər birinin nominal dəyəri 2.72 (iki manat yetmiş iki qəpik) manat olan 2 500 000 (iki milyon beş yüz min) ədəd adi adlı sənədsiz əlavə səhmlərin Emissiya Prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

"Unibank Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyərinin sədrinin birinci müavini / İcraçı Direktor:

Faiq Hüseynov Arif oğlu ____________________

"Unibank Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin üzvü / Baş Maliyyə İnzibatçısı:

Faiq Zeynalov Vahab oğlu ____________________

KOMMERSİYA BANKI UNIBANK COMMERCIAL BANK

Unibank
Sənin Bankın

# XÜLASƏ

## 1. XƏBƏRDARLIQ

1.1. Bu sənəd Emissiya Prospektinin giriş hissəsidir.

1.2. Səhmlərə investisiya etmək barədə hər hansı bir qərar investorun Emissiya Prospektini oxumasından sonra həyata keçirilməlidir.

1.3. Emissiya Prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya səhmlərə investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Emissiya Prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

## 2. EMİTENT BARƏDƏ MƏLUMAT

2.1. **Emitentin tam adı:** "Unibank Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra Emitent və ya Cəmiyyət).

2.2. **Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası, Bakı şəh., AZ1014, R.Behbudov küç., 55, məhəllə 384, Açıq Səhmdar Cəmiyyəti. "Unibank Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti 27.07.1992-ci il tarixində Azərbaycan Respublikasının Milli Bankı (hazırkı Azərbaycan Respublikasının Mərkəzi Bankı) tərəfindən dövlət qeydiyyatına alınmışdır və ona 18.03.2005-ci il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 72 saylı dövlət qeydiyyatı haqqında şəhadətnamə verilmişdir. Emitent Azərbaycan Respublikası Prezidentinin 30.04.2007-ci il tarixli Fərmanına əsasən "bir pəncərə" prinsipi ilə 08.08.2008-ci il tarixində Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

2.3. **Emitentin rəqabət apardığı əsas bazarların təsviri və cari il üzrə fəaliyyət kateqoriyası və coğrafi amilləri nəzərə alaraq ümumi gəlirlərin tədqiqi:**

Bazarın analizi Beynəlxalq modelə ("Porter`s five forces") əsasən analiz olunmuşdur:

**Yeni rəqibin bazara daxil olması təhlükəsi – Yüksək -** Texnologiyanın sürətli inkişafı istər dünya, istər isə ölkəmizdə xidmət sahələrində, xüsusilə bankçılıq sektorunda yeni innovativ şirkətlərin yaranmasına və rəqabətin artmasına səbəb olmaqdadır. Azərbaycanda son illər startup mühitinin formalaşması və inkişafı maliyyə xidmətlərinin göstərilməsində yeni innovativ həllər tətbiq edəcək istər bank, istər isə bank olmayan yeni rəqiblərin formalaşması ehtimalını artırır. Məhsul və

xidmətləri qismən və yaxud az rəqəmsallaşmış rəqib banklar bu istiqamətdə inkişafı növbəti periodda öz strateji baxışlarına daxil etmişlər. Bank sektorunda kapital tələbinin mövcudluğu, maliyyə xidmətləri və həlləri təklif edən gənc şirkətlərin əsasən mövcud banklar ilə əməkdaşlıq çərçivəsində bazara daxil olacağı gözlənilir. Xarici bazarlarda uğur qazanan FinTech şirkətlərin Azərbaycanın bank və maliyyə sektoruna daxil olması da gözləniləndir.

**Bazarda mövcud rəqabətlilik – Çox Yüksək -** Emitentin Azərbaycan Respublikası ərazisində rəqabət apardığı əsas bankların siyahısına riteyl bankçılıq üzrə "Kapital Bank", "Azərbaycan Beynəlxalq Bank", "Bank of Baku", "Express Bank", "Rabitəbank", korporativ, sme və mikro bankçılıq üzrə isə "Access Bank", "Respublika Bank", "Yelo Bank", "Pasha Bank" vs digər bankları aid etmək olar. Mövcud müştəri bazasının qorunması və yeni müştərilərin cəlb edilməsi üçün hər bir bank xidmət keyfiyyətinin artırılması, xidmətlərin rəqəmsallaşdırılması, innovativ həllərin biznes proseslərə tətbiqi, xidmətlər üzrə tariflər dəyişdirilməsi kimi alətlərdən aktiv şəkildə istifadə etməkdədir.

**Alternativlərin mövcudluğu – Yüksək** - Həm eyni bazarda rəqiblər, həm də bank olmayan kredit təşkilatları və oxşar maliyyə xidmətləri təqdim edən şirkətlər bankın əsas anternativləri hesab olunur. Fintech şirkətlərlə paralel, mobil operatorların da növbəti strateji dövrdə daha aktiv şəkildə bazarda fəaliyyət göstərəcəkləri (bank xidmətlərinin bir qismini əhatə etməklə) proqnozlaşdırılır.

**Təchizatçının Gücü – Orta -** Bankın fəaliyyətini davam etməsi üçün əsas resurs kapitaldır və bu, əsasən, müştəri əmanətləri və bank kreditlərindən əldə olunur. Belə ki, kapitalla və ucuz likvid resurslarla yaxşı təmin edilmiş banklar kreditləşmədə ciddi faiz endirimləri etməklə bazar paylarını artıra bilərlər.

**İstehlakçının Gücü – Yüksək -** Bazarda xidmət keyfiyyəti üzrə yeni yüksək standardların formalaşması, alternativlərin mövcudluğu, rəqəmsal bankçılığın inkişafı müştərilərin digər banklara keçidini asanlaşdırdığından, banklar üçün mövcud müştəri bazasının saxlanılması və aktivliyin artırılması istiqamətində rəqabət mühiti mövcuddur.

## 2.4. Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:

**Rəqəmsallaşmanın tətbiqi.**

Unibank
Sənin Bankın

Emitentin strateji prioritet olaraq müəyyən etdiyi rəqəmsal və texnoloji transformasiya bankın həm riteyl, həm də korporativ bankçılıq üzrə rəqəmsallaşmanın sürətli tətbiqinə xüsusi önəm verdiyinin göstəricisidir. 7/24 rəqəmsal filialların istifadəyə verilməsi, rəqəmsal xidmət kanallarının genişləndirilməsi, mobil bank və internet bankçılıq üzrə qabaqcıl texnologiyaların və yeniliklərin tətbiqi həm müştəri məmnuniyyətinin və xidmət keyfiyyətinin, həm də əməliyyat effektivliyinin artırılmasına səbəb olacaqdır. Texnoloji transformasiya yalnız filial prosesləri və məhsulları ilə məhdudlaşmadığından, Data mining alətlərinin geniş tətbiqi real-zamanda məlumat təhlilinə şərait yaradır və strateji və əməliyyat qərarlarının qəbul edilməsində məlumatların önəmini artırır.

**İstehlakçı inamının qorunması və məlumatların təhlükəsizliyi.**

Rəqəmsallaşmanın sürətlənməsi ilə istehlakçı və bank arasında onlayn informasiya mübadiləsinin kəskin artması müştərinin bankın IT sisteminə və məlumat təhlükəsizliyinə olan tələblərini daha da artırır. Bu tendensiyanın fonunda Bank IT sistemlərinin optimallaşdırılması, IT və kiber təhlükəsizlik, rəqəmsal dələduzluğun önlənməsi üzrə texnologiyaların tətbiqi, əməliyyat zamanı meydana gələn uğursuz cəhdlərin və gecikmə müddətinin minimallaşdırılmasını əsas amillərdən biri kimi qiymətləndirir. Bankın müştərilər ilə müxtəlif platformalar üzərindən kommunikasiyasının gücləndirilməsi, "Sənin Bank"ın sloqanı ilə bazarda yenidən mövqelənərək müştəri ehtiyaclarına və istəklərinə daha yaxşı uyğunlaşması, korporativ sosial məsuliyyət fəaliyyətlərinin aktiv icrası istehlakçı inamının qorunması və gücləndirilməsinə yönəlik fəaliyyəti kimi dəyərləndirilir.

**İqtisadi faktorlar.**

Post-pandemiya dövründə ölkədə iqtisadi fəallığın artması, dövlətin iqtisadiyyatın ağardılması, nağdsız dövriyyənin artırılması, sosial müavinatların artırılması üzrə tədbirləri, işğaldan azad edilmiş ərazilərdə tikinti və yenidən qurma işlərinin sürətli icrası iqtisadiyyata əlavə investisiyaların cəlbini artırılmaqla, ümumilikdə bazar subyektlərinin iqtisadi fəallığının artmasına müsbət təsir edir. Maliyyə Nazirliyinin məlumatlarına əsasən, cari ilin ilk beş ayında ölkədə 50,9 milyard manatlıq, o cümlədən qeyri-neft-qaz sektorunda 25 milyard manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə ÜDM real ifadədə 7,2 faiz, o cümlədən qeyri neft sektoru üzrə ÜDM 11,0 faiz artıb. Bu isə biznes kreditləşməsində öz müsbət təsirini göstərməkdədir (Bankın SME və Mikro biznes portfelində müsbət inkişaf tendensiyası müşahidə edilməkdədir). Rusiya-Ukrayna müharibəsi fonunda müxtəlif makroiqtisadi faktorların təsiri ilə istehlak qiymətləri indeksi yanvar-may

ayları ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə 12.6% artmışdır ki, nəticədə bunun borcalanların kredit ödəmə qabiliyyətinə mənfi təsir etməsi gözlənilir.

**Sosial Faktorlar**

Pandemiya dövründə insanların gündəlik yaşayışında və davranışlarında olan dəyişikliklər xidmət sahələrində rəqəmsal aktivliyin artmasını şərtləndirən bir amil olmuşdur. "Y" və "Z" nəslinin onlayn əməliyyatlara üstünlük verməsi rəqəmsal transformasiyanı sürətləndirən başqa bir faktor olaraq qeyd edilə bilər (2021-ci il ərzində ölkədaxili nağdsız əməliyyatların həcmi keçən ilin 12 ayı ilə müqayisədə 83% artmışdır). Emitent bankın müştəri bazasında gənc nəslin üstünlük təşkil etməsi rəqəmsallaşma üzrə strateji hədəflərin uğurlu icrasını şərtləndirir. Əlavə olaraq müştərilərin maliyyə savadlılığının və banklara olan güvəninin artırılması bankçılığın inkişafında önəmli şərt olaraq dəyərləndirilir.

2.5. **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:**

"Unicapital" İnvestisiya Şirkəti Açıq Səhmdar Cəmiyyəti (səhmdar). Emitentin ASC-nin nizamnamə kapitalında payı 100% təşkil edir. Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, Rəşid Behbudov küç. 55 384-cü məhəllə. VÖEN: 1401258741

"MilliKart" Məhdud Məsuliyyətli Cəmiyyət (payçı). Emitentin MMC-nin nizamnamə kapitalında payı 8 % təşkil edir. Ünvan: Azərbaycan Respublikası, Bakı şəh., Alı Mustafayev, 5A. VÖEN: 1400980591

S.W.I.F.T (Ümumdünya Banklararası Maliyyə Telekommunikasiya Cəmiyyəti). SWIFT korporativ üzvlüyə malik olan və təhlükəsiz maliyyə mesajlaşma xidmətləri üzrə dünyanın aparıcı provayderidir. Emitentin onun nizamnamə kapitalında payı 3,43% təşkil edir.SWIFT-in mesajlaşma xidmətləri dünyanın 200-dən çox ölkəsində və ərazilərində 11000-dən çox maliyyə qurum tərəfindən istifadə olunur və etibarlıdır. SWIFT-in standartlaşdırma sahəsində rolu banklar və digər maliyyə institutları arasında təhlükəsiz, maneəsiz və avtomatlaşdırılmış maliyyə əlaqələrini təmin etməkdir. Ünvan: 1, Avenue Adèle, B-1310 La Hulpe (Belçika) RPM Nivelles – VAT BE 0413.330.856 e-mail: shareholding@swift.com Fax: +32 2 655 4036; Tel: +32 2 655 4490 (https://www.swift.com)

Azərbaycan Kredit Bürosu MMC. Emitentin MMC-nin nizamnamə kapitalında payı 12.50 % təşkil edir. Ünvan:Bakı şəhəri, S.Vurgun küçəsi 43, VÖEN 1305349901.

Azərbaycan Banklar Assosiyasiyası (ABA) - üzv

Unibank
Sənin Bankın

AR Ticarət-Sənaye Palatası - üzv

Azərbaycanda Amerika Ticarət Palatası (AMCHAM) - üzv

Alman Azərbaycan Xarici Ticarət Palatası İctimai Birliyi - üzv

2.6. **Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarların adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

Emitentin nizamnamə kapitalında 10 (on) faizdən artıq iştirak payı olan səhmdarlarınpayı aşağıdakı kimidir:

| | **Adi səhmlərin sayı** | **%** | **Vətəndaşlıq** |
|---|---|---|---|
| **Qəribov Eldar Mahmud oğlu** | 45 447 313 | 86,6960% | Azərbaycan |

2.7. **Mühüm iştirak payına sahib olan səhmdarların malik olduğu səhmlər üzrə səs hüquqları barədə məlumat;**

Səhmdarların Ümumi Yığıncağının Qərarları sadə səs çoxluğu ilə qəbul edilir. Belə ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-3.5-ci maddəsinə əsasən Səhmdarların Ümumi Yığıncağında səs vermə "bir səsli səhm - bir səsdir" prinsipi əsasında həyata keçirilir. Qanunvericiliklə və Emitentin Nizamnaməsi ilə nəzərdə tutulmuş bəzi məsələlər müxtəlif səs çoxluğu ilə həll olunur. Belə ki, Səhmdarların Növbədənkənar Ümumi Yığıncağı səsvermə hüququ olan səhmlərin azı 5 (beş) % sahibləri olan səhmdarların, Müşahidə Şurasının, Audit Komitəsinin və ya İdarə Heyətinin tələbi ilə çağırıla bilər.

Nizamnaməyə əlavə və dəyişikliklərin edilməsi, Müşahidə Şurasının üzvlərinin təyin və azad edilməsi, Emitentin satılması, yenidən təşkili, başqa bankın alınması və Emitentin ləğv edilməsi məsələləri üzrə qərarlar isə Ümumi Yığıncaqda təmsil edən səhmdarların 75 (yetmiş beş) % səs çoxluğu ilə qəbul olunur.

2.8. **Mühüm iştirak payına sahib olan səhmdarlar tərəfindən emitentə nəzarətin xüsusiyyəti:**

Emitentin ümumi fəaliyyətinə nəzarəti Səhmdarların Ümumi Yığıncağı və Müşahidə Şurası həyata keçirir. Azərbaycan Respublikasının "Banklar haqqında" Qanununun 40.3-cü bəndinə əsasən bankların aidiyyəti şəxslərə digər şəxslərdən fərqli olaraq güzəştli şərtlərlə bank xidmətlərinin göstərilməsi qadağandır. Eyni zamanda, Mülki Məcəllənin 49-1-ci maddəsində aidiyyəti şəxslərlə əqdlərin bağlanması qaydası nəzərdə tutulmuşdur.

Unibank
Sənin Bankın

Ümumi yığıncaqlararası dövrdə Emitentin idarə olunmasına və işinə nəzarəti Səhmdarların Ümumi Yığıncağı tərəfindən Emitentin səhmdarlarından və ya kənar şəxslərdən 3 (üç) il müddətinə 3 (üç) nəfərdən az olmamaqla, tək sayda üzvlərdən təyin edilmiş Müşahidə Şurası həyata keçirir.

2.9. **Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Maliyyə məlumatları ətraflı izah ilə müşayiət olunmalıdır:**
**Prudensial hesabatlara uyğun təqdim edilir:**
**Link:** https://unibank.az/az/documents/quarterlyReports

**MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT**

*(min AZN)*

| Mənfəət və zərər maddələri | 31.12.2021 | 31.12.2020 | 31.12.2019 |
|---|---|---|---|
| Faiz və gəlirlərin bu qəbildən olan növləri | 121 259 | 87 724 | 80 631 |
| Faizlər və onlara bağlı xərclər | 41 473 | 28 038 | 33 617 |
| **Xalis faiz gəliri (zərəri)** | **79 786** | **59 686** | **47 015** |
| Qeyri-faiz gəlirləri | 39 813 | 30 798 | 71 787 |
| Qeyri-faiz xərcləri | 97 994 | 70 257 | 63 139 |
| **Əməliyyat mənfəəti (zərəri)** | **21 606** | **20 227** | **55 663** |
| Aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına ayırmalar (xərclər) | 16 918 | 0 | 0 |
| **Vergilər və bank fəaliyyəti ilə bağlı gözlənilməz xərclər ödənilənədək mənfəət (zərər)** | **4 688** | **20 227** | **55 663** |
| Gözlənilməz fəaliyyət növlərindən və əvvəlki dövr üçün uçotdakı dəyişikliklərdən mənfəət (zərər) | 0 | 0 | 0 |

| | | | |
|---|---|---|---|
| **Vergilər ödənilənədək mənfəət (zərər)** | **4 688** | **20 227** | **55 663** |
| Mənfəətdən vergilər | 0 | 0 | 0 |
| **Xalis mənfəət (zərər)** | **4 688** | **20 227** | **55 663** |

## BALANS HESABATI

*(min AZN)*

| | **31.12.2021** | **31.12.2020** | **31.12.2019** |
|---|---|---|---|
| **Aktivlərin maddələri** | | | |
| 1. Nağd vəsaitlər (banknotlar və sikkələr, yolda, bankomatlarda və mübadilə şöbələrində olan nağd vəsaitlər daxil olmaqla) | 56 007 | 55 631 | 55 984 |
| 2. Mərkəzi Bankda müxbir hesab | 56 144 | 35 891 | 34 849 |
| a) *o cümlədən, Məcburi ehtiyat tələbi* | 4 211 | 3 163 | 3 642 |
| 3. "Nostro" hesabları | 16 932 | 10 577 | 52 116 |
| 4. Banklar da daxil olmaqla, maliyyə institutlarındakı depozitlər | 27 688 | 48 057 | 29 518 |
| 5. Əks REPO əməliyyatları üzrə | 0 | 0 | 0 |
| 6. Qiymətli kağızlar | 62 041 | 44 193 | 88 907 |
| 7. Banklara kreditlər | 0 | 0 | 0 |
| 8. Digər maliyyə institutlarına kreditlər (xalis) | 0 | 5 766 | 7 254 |
| 9. Müştərilərə verilən kreditlər (xalis) | 656 897 | 477 955 | 396 928 |
| 10. Könəlmə çıxılmaqla bank işində istifadə olunan əsas vəsaitlər | 75 718 | 69 031 | 61 391 |
| 11. Bank işində istifadə olunmayan daşınmaz əmlak (ehtiyatlar çıxılmaqla) | 4 436 | 8 377 | 7 699 |
| 12. İcmallaşmamış törəmə təsərrüfat cəmiyyətlərdə iştirak (50%+1 səs hüququ verən səhm və ya başqa formada törəməsidirsə) | 300 | 300 | 300 |
| 13. Digər təsərrüfat cəmiyyətlərində iştirak (50%-dən az) | 690 | 693 | 689 |
| 14. Amortizasiya çıxılmaqla qeyri-maddi aktivlər | 15 553 | 15 299 | 14 518 |
| 15. Balansdankənar aktivlər uzrə mümkün zərərlərin ödənilməsi üçün məqsədli ehtiyat | 0 | 0 | 0 |

Unibank
Sənin Bankın

| | | | |
|---|---|---|---|
| 16. Digər aktivlər (məqsədli ehtiyatlar çıxılmaqla) | 66 256 | 44 042 | 37 045 |
| **17. Cəmi aktivlər** | **1 038 663** | **815 811** | **787 199** |

| **Öhdəliklərin maddələri** | | | |
|---|---|---|---|
| 1. Depozitlər (banklar və digər maliyyə institutları istisna olmaqla) | 703 536 | 522 367 | 530 732 |
| a) Fiziki şəxslərin tələbli depozitləri | 115 805 | 94 239 | 81 584 |
| b) Hüquqi şəxslərin tələbli depozitləri (qeyri-bank maliyyə institutlarının cari hesabları da daxil olmaqla) | 128 854 | 93 788 | 103 691 |
| c) Fiziki və hüquqi şəxslərin müddətli depozitləri | 458 877 | 334 340 | 345 457 |
| 2. Mərkəzi Bankın banka qarşı tələbləri | 26 044 | 34 725 | 28 012 |
| 3. Digər bankların tələbləri ("Loro" hesabları) | 209 | 146 | 618 |
| 4. REPO əməliyyatları üzrə | 10 000 | 8 037 | 0 |
| 5. Banklararası bazarın qısamüddətli maliyyə alətləri (7-ci gün də daxil olmaqla, 7 günədək olan kreditlər) | 0 | 0 | 0 |
| 6. Bankların və digər maliyyə institutların (3-cü və 5-ci sətirlər istisna edilməklə) depozitləri | 34 661 | 43 036 | 14 486 |
| 7. Bankların kreditləri (7 gündən artıq olan müddətə) | 36 750 | 10 000 | 29 500 |
| 8. Banklar istisna olmaqla, digər maliyyə institutlarının kreditləri | 73 464 | 64 903 | 57 003 |
| 9. Mərkəzi idarəetmə orqanlarının depozitləri və kreditləri | 0 | 0 | 0 |
| 10. Bələdiyyələrin depozitləri və kreditləri | 0 | 0 | 0 |
| 11. Bankın öz ehtiyacları üçün aldığı ipoteka kreditləri | 0 | 0 | 0 |
| 12. Bank tərəfindən buraxılmış qiymətli kağızlar | 25 403 | 17 000 | 17 000 |
| 13. Digər passivlər | 24 799 | 18 832 | 19 636 |
| **14. Cəmi öhdəliklər** | **934 867** | **719 045** | **696 986** |

| **Kapital** | | | |
|---|---|---|---|
| 15. Xüsusi kapital | 95 575 | 89 914 | 85 244 |
| a) dövriyyəyə buraxılmış adi səhmlər | 130 686 | 125 686 | 125 686 |

| | | | |
|---|---|---|---|
| b) dövriyyəyə buraxılmış müddətsiz imtiyazlı səhmlər | 0 | 0 | 0 |
| c) adi və imtiyazlı səhmlərin nominal və bazar qiymətləri arasındakı fərq | 484 | 484 | 484 |
| d) bölüşdürülməmiş xalis mənfəət (zərər) | - 35 595 | - 36 256 | - 40 926 |
| d1) əvvəlki illərin xalis mənfəəti (zərəri) | - 40 283 | - 47 277 | - 64 891 |
| d2) cari ilin xalis mənfəəti (zərəri) | 4 688 | 11 021 | 23 965 |
| d3) kapital ehtiyatları | 0 | 0 | 0 |
| **16. Ümumi ehtiyatlar** | 8 221 | 6 852 | 4 968 |
| **17. Cəmi kapital** | **103 796** | **96 766** | **90 213** |
| **18. Cəmi öhdəliklər və kapital** | **1 038 663** | **815 811** | **787 199** |

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

*(min AZN)*

| | 31.12.2021 | 31.12.2020 | 31.12.2019 |
|---|---|---|---|
| Əməliyyat fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin hərəkəti | 34 625 | 27 754 | 62 803 |
| Əməliyyat fəaliyyəti ilə əlaqədar generasiya/istifadə edilən xalis pul vəsaitləri | 16 221 | - 91 973 | 12 825 |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar generasiya/istifadə olunan pul vəsaitlərinin hərəkəti | - 32 772 | 29 422 | - 89 286 |
| Maliyyələşdirmə fəaliyyəti ilə əlaqədar yaradılan/istifadə olunan pul vəsaitləri | 9 360 | - 6 354 | - 1 700 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artma/(azalma) | 27 434 | - 41 151 | - 15 358 |
| Pul vəsaitləri və pul vəsaitləri ekvivalentlərinə valyuta məzənnələrinin dəyişməsinin təsiri | - 449 | 301 | 88 |
| **Dövrün əvvəlinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **102 099** | **142 949** | **158 218** |
| **Dövrün sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **129 083** | **102 099** | **142 949** |

## KAPİTAL HƏRƏKƏTİ HESABATI

| | Qaytarıla bilən iştirakçı kapitalı | Əlavə kapital | Bölüşdürülməmiş mənfəət (zərər) | İştirakçı kapitalın cəmi |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| **31.12.2019 tarixinə qalıq** | **125 686** | **5 452** | **- 40 926** | **90 213** |
| 2020-ci il üzrə xalis mənfəət (zərər) | 0 | 0 | 11 021 | 11 021 |
| Qaytarıla bilən iştirakçı kapitalında artım | 0 | 0 | 0 | 0 |
| Ödənilmiş dividentlər | 0 | 0 | - 6 354 | - 6 354 |
| Digər ehtiyatlar | 0 | 1 884 | 0 | 1 884 |
| Digər dəyişikliklər | 0 | 0 | 2 | 2 |
| **31.12.2020 tarixinə qalıq** | **125 686** | **7 336** | **- 36 256** | **96 766** |
| 2021-ci il üzrə xalis mənfəət (zərər) | 0 | 0 | 4 688 | 4 688 |
| Qaytarıla bilən iştirakçı kapitalında artım | 5 000 | 0 | 0 | 5 000 |
| Ödənilmiş dividentlər | 0 | 0 | - 4 043 | - 4 043 |
| Digər ehtiyatlar | 0 | 1 369 | 0 | 1 369 |
| Digər dəyişikliklər | 0 | 0 | 16 | 16 |
| **31.12.2021 tarixinə qalıq** | 130 686 | 8 705 | - 35 595 | 103 796 |

2.10. **Seçilmiş proforma maliyyə məlumatı. Seçilmiş proforma maliyyə məlumatının emitentin fərziyyəyə əsaslanan vəziyyətinin təsvir edilməsi və buna görə də şirkətin faktiki maliyyə göstəricilərini özündə əks etdirməməsi barədə qeyd:**
Mövcud deyil.

2.11. **Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:**
Mövcud deyil.

2.12. **Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:**
KMPG Audit Azərbaycan tərəfindən "Unibank Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin ("Bank") və onun törəmə müəssisəsinin ("Qrup") 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatdan və həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatlardan, eləcə də əsas mühasibat uçotu siyasətləri və sair izahedici məlumatları əhatə edən qeydlərdən ibarət olan konsolidə edilmiş maliyyə hesabatlarının auditi aparıldı.
Kənar audit şirkətinin rəyinə görə, konsolidə edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Qrupun 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə konsolidə edilmiş maliyyə nəticələrini

və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün əks etdirir.

2.13. **Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə vəsaitlərin mənbələri barədə məlumat:**
Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etmədiyi təqdirdə Emitent qanunvericilikdə nəzərdə tutulmuş bütün vasitələrdən istifadə etməklə hesablar üzrə və əmanətlərə vəsaitlərin cəlb edilməsi, maliyyə və kapital bazarında kreditlərin verilməsi, habelə qiymətli kağızların buraxılması və s. formada əlavə vəsaitləri cəlb etmə imkanına malikdir.

## 3. SƏHMLƏR HAQQINDA MƏLUMAT

3.1. **Səhmlərin növü:** adi adlı sənədsiz səs hüququ verən səhm, AZ1003002024 (bundan sonra: səhm və ya səhmlər)

3.2. **Emitentin emissiya hesabında olan səhmlərinin sayı və nominal dəyəri:**
Mövcud deyil.
**Emitentin törəmə müəssisələrinə məxsus emitentin səhmlərinin sayı və nominal dəyəri:**
Emitentin "Unicapital" İnvestisiya Şirkəti Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalında payı 100% təşkil edir. Səhmlərin sayı 100 000 (yüz min), nominal dəyəri 3 (üç) manat təşkil edir.
Emitentin törəmə müəsisələrinin Emitentdə payı yoxdur.

3.3. **Səhmlərlə təsbit olunan hüquqlar:**

- bankın idarə edilməsində qanunvericiliklə və bankın nizamnaməsi ilə müəyyən edilmi qayadada iştirak etmək, onun idarə etmə və icra orqanlarına seçmək və seçilmək;
- qanunvericiliklə müəyyən edilmiş qaydada, bankın fəaliyyətinə dair məlumat almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;
- bankın səhmdarlarının ümumi yığıncağının çağırılmasını tələb etmək;
- bankın səhmdarlarının ümumi yığıncağının gündəliyində dəyişikliklərin edilməsini tələb etmək;
- bankın səhmdarlarının ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;
- bankın fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;
- bankın xalis mənfəətindən dividend almaq;
- Bank fəaliyyətinə xitam verildikdə, Bankın kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı

səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Bankın yerdə qalan əmlakının müəyyən hissəsini almaq;
- qanunvericiliklə və bankın nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

3.4. **Səhmlərlə təsbit olunan məhdudiyyətlər:**
Mövcud deyil.

3.5. **Səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:**
Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulla ilə Bakı Fond Birjası vasitəsilə nominal qiymətlə həyata keçiriləcəkdir. Bununla bağlı müraciət Mərkəzi Bank tərəfindən bu səhmlərin buraxılışının dövlət qeydiyyatı və emissiya prospekti təsdiq edildikdən sonra baş tutmalıdır. İnvestisiya Şirkəti vasitəsilə səhmlərə alqı-satqı əqdləri Azərbaycan Respublikasının ərazisində fond birjasında bağlanılır. Fond birjasında səhmlərin alqı-satqı əqdləri yalnız bu səhmlərin fond birjasının daxili qaydalarına əsasən kütləvi ticarətə qəbulundan sonra həyata keçirilir.

3.6. **Emitentin dividend siyasətinin təsviri:**
Emitentin mənfəətinin bölüşdürülməsi nəticəsində dividendlərin ödənilməsi həyata keçirilir. Dividend ödənilməsi Emitentin Səhmdarlarının Ümumi Yığıncağının Qərarına əsasən və Azərbaycan Respublikası Mərkəzi Bankının icazəsi ilə ödənilir.

## 4. RİSK FAKTORLARI

4.1. **Təklif olunan səhmlərlə əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**
- Valyuta riski – valyuta məzənnəsinin kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;
- Faiz riski – faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;
- İnflyasiya riski – pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- Likvidlik riski – müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;
- Əməliyyat riski – daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
- Hesablaşma və kontragent riski – hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
- Kredit riski – borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;

- Təbii – insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, zəlzələ, daşqın, tufan, qasırğa, ildırım və s. risklər)

4.2. **Emitentin və ya onun fəaliyyət göstərdiyi sahəyə xas olan risk faktorları:**
Abunə yazılışı zamanı səhmlərin alınması məqsədilə verilən sifarişlər əsasında ödənişlərin həyata keçirilməməsi;
Emissiyanı baş tutmuş hesab edimesi üçün abunə yazılışı dövründə və səhmlərin yerləşdirilməsi zamanı tələb olunan buraxılış üzrə minimum məbləğin – 6 800 000,00 manat məbləğin əldə olunması.

## 5. TƏKLİF

5.1. **Emissiyanın həyata keçirilməsindən nəzərdə tutulan xərclər və cəlb olunacaq vəsaitlərin xalis məbləği:**
Bakı Fond Birjasının səhmlərinin yerləşdirilməsi üzrə komissiyası 500 (min. 0.5 – max. 500 AZN). Komissiya haqqı əqdin həcmindən asılı olaraq emitent tərəfindən ödənilir.
Milli Depozit Mərkəzində səhmlərin saxlanması və reyestrinin aparılması üzrə xidmətlərin göstərilməsinə görə emitent tərəfindən səhmin nominal dəyərinin nominal dəyərin 0,02%-i, (minimum 50, maksimum 5000) ödənilir. Ödəniləcək məbləğ ƏDV daxil – 2380 manat.
Anderrayter xidmətləri üçün tutulacaq komissiya emissiya həcmindən 0.5% təşkil edir. Komissiya hər əqdin məbləğindən emitent tərəfindən ödənilir.
Emissiyanın həyata keçirilməsi nəticəsində cəlb olunacaq vəsaitlərin xalis maksimum məbləği 6 800 000 (altı milyon səkkiz yüz min) manatdır.

5.2. **Təklifin səbəbləri, gəlirlərin istifadəsi, gəlirlərin nəzərdə tutulan xalis məbləği:**
İnvestisiya qiymətli kağızların bir növü olaraq hər birinin nominal dəyəri 2.72 manat olan 2 500 000 (iki milyon beş yüz min) ədəd adi adlı sənədsiz səhmlərin təklifi onların yerləşdirilməsi yolu ilə investorlardan sərbəst vəsaitlərin Emitentin Nizamnamə kapitalına cəlb edilməsi məqsədilə həyata keçirilir. Emitentin fəaliyyəti nəticəsində əldə edilmiş gəlirlər Emitentin kapitallaşmasına yönəldiləcək və pul vəsaitlərinin resurs bazasının fərqləndirilməsinə imkan yaradacaq.

5.3. **Təklifin şərtlərinin təsviri:**
Səhmlərin abunə yazılışına səhmlərin emissiyasının dövlət qeydiyyatına alındığı gün başlanılır. Abunə yazılışının müddəti abunə yazılışının başladığı tarixdən etibarən 15 iş günü müəyyən edilir. Abunə yazılışı başa çatdıqdan sonra 5 (beş) iş günü ərzində səhmlərin yerləşdirilməsinə başlanılır və abunə yazılmış şəxslərə bu barədə bildiriş göndərilir.
İlk növbədə, Emitentin almaqda üstünlük hüququna malik səhmdarları tərəfindən təqdim edilən sifarişlər təmin olunur. Emitentin səhmdarları öz üstünlük hüquqlarından

səhmlərin Bakı Fond Birjasında yerləşdirilməsinə başlandığı tarixindən ilk 2 (iki) iş günü ərzində istifadə edə biləcəklər.
Səhmlərin yerləşdirilməsi 30 dekabr 2022-ci il tarixindən gec olmamaqla 7 iş günü müddətində başa çatdırılacaq.
Yerləşdirmənin başlanma tarixində səhmlərin satış qiyməti səhmlərin nominal dəyərinin 100 faizini, yəni bir ədəd səhmin satış qiyməti 2.72 (iki manat yetmiş iki qəpik) təşkil edir. Səhmlərin dəyəri nağdsız qaydada, milli valyutada manatla ödənilir.
Səhmlərin alınması köçürmə yolu ilə anderrayter vasitəsilə həyata keçirilir. Vəsaitlər Bakı Fond Birjasında alqı-satqı əqdinin keçirilmə vaxtından gec olmayaraq anderrayterin agent bankında olan, Azərbaycan manatı ilə ödənişlər üçün nəzərdə tutulmuş aşağıdakı hesabına köçürülməlidir:
**Müştəri adı: UNICAPITAL İNVESTISIYA ŞIRKƏTI AÇIQ SƏHMDAR CƏMIYYƏTI**
**Hesabın identifikasiya nömrəsi: AZ60UBAZ01005439535090AZN004**
**Benefisiar bank: UNIBANK CB SWIFT address: UBAZAZ22 (Baku, AZ, Azerbaijan) TIN: 1300017201**
**SWIFT: UBAZAZ22**
**Kod: 505754**
**VOEN: 1300017201**
**Müxbir hesab: AZ46NABZ01350100000000015944**

5.4. **Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

**5.4.1. "Bakı Fond Birjası" QSC.** "Bakı Fond Birjası" QSC səhm və digər növ qiymətli kağızlarla ilkin və təkrar bazarda mütəşəkkil ticarəti təşkil edir. "Unibank Kommersiya Bankı" ASC-nin tədavüldə olan səhmləri "Bakı Fond Birjası" QSC-nin qeyri-listinq bazar seqmentində ticarət olunur. Bu emissiya prospekti təsdiq olunduqdan sonra yeni buraxılacaq səhmlər tədavüldə olan səhmlərlə eyni dövlət qeydiyyat nömrəsi altında "Bakı Fond Birjası" QSC-nin listinqinə daxil ediləcəkdir. "Bakı Fond Birjası" QSC "Unibank Kommersiya Bankı" ASC-nin və digər emitentlərin emissiya etdiyi qiymətli kağızların onun ticarət platformasında ticarət buraxılmasında marağı kommersiya xarakterlidir. "Bakı Fond Birjası" QSC qiymətli kağızların yerləşdirilməsi və tədavülündən, habelə qiymətli kağızları öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**5.4.2. Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi.** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Azərbaycan Respublikasında qiymətli kağızların saxlanılması, qiymətli kağızların reyestrinin aparılması, qiymətli kağızlar üzrə ödəniş agenti və digər aidiyyəti xidmətləri göstərir. "Unibank Kommersiya Bankı" ASC-nin tədavüldə olan səhmləri MDM-də saxlanılır, bu səhmlərin mülkiyyətçilərinin (səhmdarların) reyestri və mülkiyyət hüquqlarının uçotu da MDM tərəfindən aparılır. "Unibank Kommersiya Bankı" ASC-nin yeni buraxılacaq səhmləri üzrə müvafiq

xidmətlər MDM tərəfindən həyata keçiriləcəkdir. Bu xidmətlərin göstərilməsinə görə MDM öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**5.4.3. "Unicapital İnvestisiya Şirkəti" ASC.** "Unicapital İnvestisiya Şirkəti" ASC lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. Bu lisenziya əsasında "Unicapital İnvestisiya Şirkəti" ASC emitent və investorlara investisiya bir sıra əsas və yardımçı investisiya xidmətləri göstərir. "Unibank Kommersiya Bankı" ASC-nin yeni buraxılacaq səhmlərinin anderraytinqi və yerləşdirilməsi "Unicapital İnvestisiya Şirkəti" ASC tərəfindən həyata keçiriləcəkdir və bu xidmətin göstərilməsinə görə "Unibank Kommersiya Bankı" ASC-dən xidmət haqqı tutacaqdır. "Unibank Kommersiya Bankı" ASC-nin səhmlərinin anderraytinqi və yerləşdirilməsi prosesində "Unicapital İnvestisiya Şirkəti" ASC-nin marağı kommersiya xarakterlidir.

**5.4.4.** Bu emissiyada iştirak edən MDM, BFB, emitentin İdarə Heyətinin sədrinin birinci müavini / İcraçı direktor Fərid Abuşov, emitentin İdarə Heyətinin üzvü / Baş Maliyyə İnzibatçısı Faiq Zeynalov, kənar auditorların və anderrayterin maraqlarının toqquşması ilə bağlı hal mövcud deyildir.

5.5. **Təklif edilən səhmlərin mülkiyyətçilərinin adı və ünvanı, emitent ilə hər hansı bir səhmdar arasında müəyyən olunmuş müddət ərzində həmin səhmdara məxsus səhmlərin satılmaması haqqında olan müqavilələr barədə məlumat, iştirak edən tərəflər, müqavilənin müddəti:**

Məlumat mövcud deyil

5.6. **Yeni səhm təklifi nəticəsində mövcud səhm mülkiyyətçilərinin paylarında olan dəyişmə ehtimalları (miqdarı və faizi göstərilməklə):**

Səhmlər kütləvi təklif edilir. Lakin, emitentin səhmdarları öz üstünlük hüquqlarından səhmlərin Bakı Fond Birjasında yerləşdirilməsinə başlandığı tarixindən ilk 2 (iki) iş günü ərzində istifadə edərək öz paylarına mütənasib qaydada yeni buraxılan səhmləri əldə edə bilərlər. Bankın mövcud səhmdarları üstünlük hüquqlarından istifadə etmədikdə abunə yazılışına yazılmış investorlar növbəlilik qaydasında səhmləri əldə edə bilər.

5.7. **Səhm alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

Qanunvericiliklə nəzərdə tutulan halda Emitent dividentlər üzrə faiz ödənişi zamanı qanunvericiliklə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.1.22-ci maddəsinə əsasən, 2016-cı il fevralın 1-dən etibarən 7 (yeddi) il müddətində yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır.

Həmin Məcəllənin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır.

Azərbaycan Respublikası Mülki Məcəllənin 997.2-ci maddəsinə əsasən, istiqrazlar və səhmlər investisiya qiymətli kağızlarıdır. Həmin Məcəllənin 1077.1-ci maddəsinə əsasən, səhm mülkiyyətçisinin həmin səhmin nominal dəyərinə mütənasib surətdə səhmi buraxmış səhmdar cəmiyyətinin nizamnamə kapitalında iştirakını, mənfəətindən dividendlər, ləğvindən sonra isə qalan əmlakının hissəsini almaq hüququnu, həmçinin səhmdar cəmiyyətinin idarə olunmasında iştirak etmək hüququnu təsdiqləyən investisiya qiymətli kağızıdır.

Anderrayter xidmətləri üçün tutulacaq komissiya 0.5 % təşkil edir. Komissiya hər əqdin məbləğindən emitent tərəfindən ödənilir.

5.8. **Səhmlərin yerləşdirilməsində iştirak edəcək anderrayter barədə məlumat (adı, lisenziyasının nömrəsi, verilmə tarixi):**

«Unicapital» İnvestisiya Şirkəti Açıq Səhmdar Cəmiyyəti anderayter təyin edilmişdir.

Hüquqi ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1022, R.Behbudov küç., 55, məhəllə 384.

Telefon: (994 12) 541 33 33; 598 42 96

Faks: (994 12) 498 09 53

E-mail: office@unicapital.az, broker@unicapital.az

VÖEN: 1401258741

08 yanvar 2016-cı il tarixli İSN/L-30/2016 qeydiyyat nömrəli 087910 nömrəli lisenziya Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi (hazırkı İqtisadiyyat Nazirliyi) tərəfindən verilmişdir.

5.9. **Səhmlərin təklifinin və yerləşdirilməsinin başlama və başa çatma tarixləri:**

Səhmlərin abunə yazılışına səhmlərin emissiyasının dövlət qeydiyyatına alındığı gün başlanılır. Abunə yazılışının müddəti abunə yazılışının başladığı tarixdən etibarən 15 iş günü müəyyən edilir. Abunə yazılışı başa çatdıqdan sonra 5 (beş) iş günü ərzində səhmlərin yerləşdirilməsinə başlanılır və abunə yazılmış şəxslərə bu barədə bildiriş göndərilir. İlk növbədə, Emitentin almaqda üstünlük hüququna malik səhmdarları tərəfindən təqdim edilən sifarişlər təmin olunur. Emitentin səhmdarları öz üstünlük hüquqlarından səhmlərin Bakı Fond Birjasında yerləşdirilməsinə başlandığı tarixindən ilk 2 (iki) iş günü ərzində istifadə edə biləcəklər. Səhmlərin yerləşdirilməsi 30 dekabr 2022-ci il tarixindən gec olmamaqla 7 iş günü müddətində başa çatdırılacaq. Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulla ilə Bakı Fond Birjası vasitəsilə nominal qiymətlə həyata keçiriləcəkdir.

5.10. **Anderrayter tərəfindən təklifin şərtləri barədə məlumatın investorlara təklif zamanı təqdim olunması barədə qeyd:**

Abunə yazılışı dövründə anderrayter öz səlahiyyətləri çərçivəsində potensial investorları emissiya şərtləri ilə tanış edir, emissiya şərtlərini onlara izah edir, sifarişlərin hazırlanmasına köməklik edir və sifarişləri qəbul edir.

## I HİSSƏ

## SƏHMLƏRİN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMATLAR

### 1. EMİTENTİN AUDİTORLARI BARƏDƏ MƏLUMAT

**1.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| İl: | Auditorun adı: | Auditorun ünvanı: | Auditorun üzv olduğu təşkilat: |
|---|---|---|---|
| **2019** | "Baker Tilly Audit Azərbaycan" qapalı səhmdar cəmiyyəti | AZ1022, Bakı şəhəri, C.Məmmədquluzadə küçəsi 102 A, City Point Baku Biznes Mərkəzi 9-cu mərtəbə | Baker Tilly İnternational |
| **2020** | "Baker Tilly Audit Azərbaycan" qapalı səhmdar cəmiyyəti | AZ1022, Bakı şəhəri, C.Məmmədquluzadə küçəsi 102 A, City Point Baku Biznes Mərkəzi 9-cu mərtəbə | Baker Tilly İnternational |
| **2021** | "KPMG Audit Azərbaycan" məhdud məsuliyyətli cəmiyyəti | AZ1010, Bakı şəhəri, Neftçilər prospekti 153, "Port Baku" Cənub qülləsi 12-ci mərtəbə | KPMG İnternational |

**1.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:**

2021-ci ildən etibarən mövcud auditor KPMG Audit Azərbaycan şirkətidir. Bundan əvvəl Emitentin konsolidasiya edilmiş maliyyə hesabatları 4 il ərzində Baker Tilly Azərbaycan

tərəfindən audit olunurdu. Əvəzlənmənin səbəbi Baker Tilly Azərbaycan şirkəti tərəfindən əlavə konsultasiya xidmətlərinin göstərilməsi və eyni zamanda "Big4" təcrübəsinin tətbiqi yolu ilə audit yoxlamasının dərinliyinin daha da yüksəldilməsidir.

## 2. SEÇİLMİŞ MALİYYƏ MƏLUMATI

**2.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildikdə əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**

Bu barədə məlumat hazırkı emissiya prospektinin Xülasə hissəsinin 2.9-cu bəndində açıqlanır.

## 3. EMİTENT BARƏDƏ MƏLUMAT

**3.1. Emitentin tam adı, təşkilati-hüquqi forması:**

"Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti

**3.2. Emitentin dövlət qeydiyyatının rekvizitləri, Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** Emitent 27 iyul 1992-ci il tarixində Azərbaycan Respublikası Milli Bankı (hazırda Mərkəzi Bankı) tərəfindən dövlət qeydiyyatına alınmışdır və 15 oktyabr 2002-ci il tarixində "Promtexbank" Səhmdar Kommersiya Bankının qoşulduğu "Mbank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin hüquqi varisi olmaqla onun bütün hüquq və vəzifələrini əldə edib. 27 dekabr 2002-ci il tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş dəyişiklik əsasında Bank "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti adlandırılmışdır. Emitent 14 dekabr 2010-cu il tarixli Azərbaycan Respublikası Milli Bankı (hazırda Mərkəzi Bankı) tərəfindən müddətsiz olaraq verilmiş 73 saylı bank lisenziyası əsasında fəaliyyət göstərir. VÖEN: 1300017201

**3.3. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**

Qeydiyyat ünvanı: Azərbaycan Respublikası, Bakı şəh., AZ1014, R.Behbudov küç., 55, məhəllə 384

Elektron poçt ünvanı: bank@unibank.az

İnternet səhifəsi: www.unibank.az

Əlaqə telefonları: (99412) 117, (99412) 498 22 44

Unibank
Sənin Bankın

**3.4. Son üç maliyyə ili ərzində hər bir maliyyə ili üçün emitentin əsas investisiyalarının təsviri (məbləği göstərilməklə):**

| | 2021 | 2020 | 2019 |
|---|---|---|---|
| **Kapitala investisiyalar** | **989 647** | **992 992** | **989 174** |
| MilliKart MMC | 400 000 | 400 000 | 400 000 |
| Unicapital ASC | 300 000 | 300 000 | 300 000 |
| SWIFT | 39 647 | 42 992 | 39 174 |
| Azərbaycan Kredit Bürosu MMC | 250 000 | 250 000 | 250 000 |
| **Ticarət üçün QK** | **56 156 007** | **37 276 490** | **57 635 803** |
| Azərbaycan Respublikası bondları | 30 711 339 | 11 306 835 | 10 349 600 |
| Maliyyə Nazirliyinin qiymətli kağızları | 14 233 722 | 18 085 493 | 33 045 415 |
| Mərkəzi bankın qiymətli kağızları | 4 781 666 | 1 914 669 | 5 942 288 |
| Digər maliyyə institutlarının qiymətli kağızları | 6 429 280 | 5 969 494 | 7 079 500 |
| Qeyri-maliyyə institutlarının qiymətli kağızları | 0 | 0 | 1 219 000 |
| **Ödəniş müddətinədək saxlanılan QK** | **5 885 462** | **6 916 597** | **30 269 300** |
| Maliyyə Nazirliyinin qiymətli kağızları | 3 941 300 | 3 941 300 | 0 |
| Digər maliyyə institutlarının qiymətli kağızları | 1 308 362 | 2 125 297 | 30 269 300 |
| Qeyri-maliyyə institutlarının qiymətli kağızları | 635 800 | 850 000 | 0 |

**3.5. Emitentin cari investisiyalarının təsviri, onların coğrafi bölüşdürülməsi (xarici və daxili) və maliyyələşdirmə üsulu (daxili və xarici):**

| Adı | Məbləği 31.05.2022 | Coğrafi bölüşdürülməsi | Maliyyələşdirmə üsulu | Növü |
|---|---|---|---|---|
| Azərbaycan Respublikası bondları | 40 067 800 | Daxili | Daxili | İstiqraz |
| Mərkəzi bankın qiymətli kağızları | 1 614 501 | Daxili | Daxili | Not |
| Maliyyə Nazirliyinin qiymətli kağızları | 200 000 | Daxili | Daxili | İstiqraz |

| | | | | |
|---|---|---|---|---|
| Digər maliyyə institutlarının qiymətli kağızları | 1 782 280 | Daxili | Daxili | İstiqraz |
| Digər maliyyə institutlarının qiymətli kağızları | 6 917 542 | Xarici | Daxili | İstiqraz |
| Qeyri-maliyyə institutlarının qiymətli kağızları | 1 750 000 | Daxili | Daxili | İstiqraz |
| MilliKart MMC | 400 000 | Daxili | Daxili | Səhm |
| Unicapital ASC | 300 000 | Daxili | Daxili | Səhm |
| SWIFT | 37 593 | Xarici | Daxili | Səhm |
| Azərbaycan Kredit Bürosu MMC | 250 000 | Daxili | Daxili | Səhm |

### 3.6. İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri

Mövcud deyil

## 4. EMİTENTİN BİZNESİNİN İCMALI

### 4.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə), emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərin əsas kateqoriyalarını göstərərək, emitentin əməliyyatlarının və əsas fəaliyyətlərinin xarakteri ilə bağlı əsas faktorlar və onların təsviri:

Emitentin son üç maliyyə ili ərzində hər bir maliyyə ili üzrə əsas fəaliyyət istiqaməti bank fəaliyyətidir. Eyni zamanda, milli və xarici valyutada fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsi, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarının məcmu halda həyata keçirilməsi, Nizamnaməsində, bank lisenziyasında və qanunvericilikdə nəzərdə tutulmuş digər fəaliyyət növləri ilə məşğul olur. Bundan əlavə, xaricdən cəlb olunan kreditlər hesabına kiçik və orta sahibkarlığın inkişafına köməklik göstərilməsi, istehlak, korporativ kreditlərin verilməsi, plastik kartların istifadəsi sahəsində təşkilatlarda əmək haqqının verilməsinin kartlar vasitəsilə həyata keçirilməsi, nağdsız hesablaşmaların həyata keçirilməsi məqsədilə pos-terminalların, "cash-in"lərin quraşdırılması və s. xidmətlər göstərir.

Emitentin əməliyyatlarının və əsas fəaliyyətlərinin xarakteri ilə bağlı əsas faktorlar sırasında manatın məzənnəsinin stabil olması, Dövlət büdcəsinin kəsiri aşağı səviyyədə olması kimi xarici faktorlar və emitentin kredit portfelinin artımı, emitent tərəfindən yaradılmış ehtiyatların azalması kimi daxili faktorlar göstərmək olar.

### 4.2. Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:

- **UCard** – Unibank tərəfindən ölkədə ilk dəfə təqdim olunan innovasiyalı, kredit və multivalyutalı debet kartını özündə birləşdirən tək kartdır(həmçinin komissiyassız nağdlaşdırma imkanı, kart qalığına bonus, keşbek və s. imkanlara sahibdir). Bu kartda müxtəlif xarici valyutalar mövcuddur. Müştərilər asanlıqla bu valyutalar ilə istənilən vaxt əməliyyatlar apara bilərlər. Həmçinin müştəri, nağd krediti və kredit xəttini filiala gəlmədən birbaşa kartına əldə edə bilərlər. UCard mütəmadi olaraq təkmilləşdirilir. Gələcəkdə yeni funksiyaların tətbiq edilməsi planlaşdırılır.

- **UBank** - banka getmədən, hər yerdə, istədiyin vaxtda, cəmi bir neçə saniyə ərzində müştərilərinə lazım olan bank xidmətlərindən istifadə etməyə imkan yaradan tətbiqdir. Tətbiqdə kommunal və digər ödənişlər, xarici pul köçürmələri və qəbulu etmək mümkündür. Bu tətbiq mütəmadi olaraq yenilənir və müştərilərə ən son dünya trendlərinə uyğun yeni funksionallıqlar təqdim edir.

- **Leobank** – Unibank-ın təqdim etdiyi, ölkənin ilk neobankı, filialı olmayan, yeni mobil bankçılıq xidmətidir. Rəqəmsal bankın məqsədi müştərilərin heç yerə getmədən, olduğu yerdən bank xidmətlərini müştərilərə təqdim etməkdir. Üstəlik, heç bir zamin tələbi olmadan, şəxsi məlumatları yalnız onlayn yoxlamaqla müştərilərə kredit xəttinin ayrılması imkanı yaradır. Leobankın məqsədi neobankçılığın daha geniş imkanlarını müştərilərə gələcəkdə təqdim etməkdir.

- **Apple Pay** – Apple şirkəti tərəfindən təqdim olunan rəqəmsal cüzdan xidmətidir. Bu xidmət Unibank müştəriləri üçün 2 noyabr 2021-ci ildən etibarən istifadəyə verilib. Onun vasitəsilə Unibank müştəriləri istənilən kartlarını "Wallet"ə əlavə edərək, smart cihazları ilə təmassız ödənişlər həyata keçirə bilirlər. Unibank bu xidməti Azərbaycan ərazisində istifadəyə verən ilk banklardan biridir.

- **"Google Pay™"** – Google şirkəti tərəfindən təqdim olunan rəqəmsal cüzdan xidmətidir. Bu xidmət Unibank müştəriləri üçün 24 avqust 2022-ci ildən etibarən istifadəyə verilib. Onun vasitəsilə Unibank müştəriləri istənilən kartlarını "Google Wallet™"ə əlavə edərək, smart cihazları ilə təmassız ödənişlər həyata keçirə bilirlər. Unibank bu xidməti Azərbaycan ərazisində istifadəyə verən ilk banklardan biridir.

**4.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri və son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) fəaliyyət kateqoriyası və coğrafi amilləri nəzərə alaraq ümumi gəlirlərin qruplaşdırılması:**

Bazarın analizi Beynəlxalq modelə ("Porter's five forces") əsasən analiz olunmuşdur:

**Yeni rəqibin bazara daxil olması təhlükəsi – Yüksək** - Texnologiyanın sürətli inkişafı istər dünya, istər isə ölkəmizdə xidmət sahələrində, xüsusilə bankçılıq sektorunda yeni innovativ şirkətlərin yaranmasına və rəqabətin artmasına səbəb olmaqdadır.

Azərbaycanda son illər startup mühitinin formalaşması və inkişafı maliyyə xidmətlərinin göstərilməsində yeni innovativ həllər tətbiq edəcək istər bank, istər isə bank olmayan yeni rəqiblərin formalaşması ehtimalını artırır. Məhsul və xidmətləri qismən və yaxud az rəqəmsallaşmış rəqib banklar bu istiqamətdə inkişafı növbəti periodda öz strateji baxışlarına daxil etmişlər. Bank sektorunda kapital tələbinin mövcudluğu, maliyyə xidmətləri və həlləri təklif edən gənc şirkətlərin əsasən mövcud banklar ilə əməkdaşlıq çərçivəsində bazara daxil olacağı gözlənilir. Xarici bazarlarda uğur qazanan FinTech şirkətlərin Azərbaycanın bank və maliyyə sektoruna daxil olması da gözləniləndir.

**Bazarda mövcud rəqabətlilik – Çox Yüksək -** Emitentin Azərbaycan Respublikası ərazisində rəqabət apardığı əsas bankların siyahısına riteyl bankçılıq üzrə "Kapital Bank", "Azərbaycan Beynəlxalq Bank", "Bank of Baku", "Express Bank", "Rabitəbank", korporativ, sme və mikro bankçılıq üzrə isə "Access Bank", "Respublika Bank", "Yelo Bank", "Pasha Bank" vs digər bankları aid etmək olar. Mövcud müştəri bazasının qorunması və yeni müştərilərin cəlb edilməsi üçün hər bir bank xidmət keyfiyyətinin artırılması, xidmətlərin rəqəmsallaşdırılması, innovativ həllərin biznes proseslərə tətbiqi, xidmətlər üzrə tariflər dəyişdirilməsi kimi alətlərdən aktiv şəkildə istifadə etməkdədir.

**Alternativlərin mövcudluğu – Yüksək -** Həm eyni bazarda rəqiblər, həm də bank olmayan kredit təşkilatları və oxşar maliyyə xidmətləri təqdim edən şirkətlər bankın əsas anternativləri hesab olunur. Fintech şirkətlərlə paralel, mobil operatorların da növbəti strateji dövrdə daha aktiv şəkildə bazarda fəaliyyət göstərəcəkləri (bank xidmətlərinin bir qismini əhatə etməklə) proqnozlaşdırılır.

**Təchizatçının Gücü – Orta -** Bankın fəaliyyətini davam etməsi üçün əsas resurs kapitaldır və bu, əsasən, müştəri əmanətləri və bank kreditlərindən əldə olunur. Belə ki, kapitalla və ucuz likvid resurslarla yaxşı təmin edilmiş banklar kreditləşmədə ciddi faiz endirimləri etməklə bazar paylarını artıra bilərlər.

**İstehlakçının Gücü – Yüksək -** Bazarda xidmət keyfiyyəti üzrə yeni yüksək standardların formalaşması, alternativlərin mövcudluğu, rəqəmsal bankçılığın inkişafı müştərilərin digər banklara keçidini asanlaşdırdığından, banklar üçün mövcud müştəri bazasının saxlanılması və aktivliyin artırılması istiqamətində rəqabət mühiti mövcuddur.

Son 3 maliyyə ili ərzində emitentin gəlirləri bank fəaliyyətindən ,o cümlədən, öz adından və öz hesabına kreditlərin verilməsi, müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarının aparılması,Nizamnaməsində, bank lisenziyasında və qanunvericilikdə nəzərdə tutulmuş digər fəaliyyət növlərindən formalaşır.

Unibank
Sənin Bankın

Emitentin ümumi gəlirləri əsas fəaliyyət yeri olan Azərbaycan mənbəyindən, Azərbaycan Respublikasından kənarda isə vəsaitlərinin depozit hesablarda yerləşdirilməsi halında xarici mənbələrdən formalaşır.

**4.4. Emitentin Biznes İcmalının 4.1-4.3-cü bəndlərində göstərilmiş məlumatlara təsir edən amillər:**

- Manatın məzənnəsinin stabil olması;
- Dövlət büdcəsinin kəsiri aşağı səviyyədə olması;
- Emitent tərəfindən yaradılmış ehtiyatların azalması;
- Emitentin kredit portfelinin artımı.

**4.5. Emitentin patent və lisenziyalardan, sənaye, kommersiya və ya maliyyə müqavilələrindən və ya istehsal proseslərindən asılılığı barədə məlumat:**

- Emitentin **"Unibank"** əmtəə nişanı 03.09.2008-ci il tarixində 2008 1142 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"UCAS - Unibank Credit Analitical System"** əmtəə nişanı 10.03.2010-cu il tarixində 01/C-4945-10 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"unidirect"** əmtəə nişanı 19.12.2012-ci il tarixində 2012 1214 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"Albalı"** əmtəə nişanı 19.12.2012-ci il tarixində 2012 1215 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"Unibank – hər kəsin bankı"** əmtəə nişanı 19.12.2012-ci il tarixində 2012 1216 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"Direkt"** əmtəə nişanı 28.02.2013-cü il tarixində 2013 0206 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"unibank Supercard"** əmtəə nişanı 09.07.2014-cü il tarixində 2014 1148 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"unibank - Biznesinizə Daimi Dəstək"** əmtəə nişanı 28.01.2015-ci il tarixində 2015 0210 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"unibank Mobile - Bankdan Daha Yaxın"** əmtəə nişanı 25.12.2017-ci il tarixində 2017 1404 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"Korporativ internet bankçılıq"** əmtəə nişanı 23.01.2018-ci il tarixində 01/C-9545-18 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"Yeni Albalı şəxsi kabinet"** əmtəə nişanı 16.07.2018-ci il tarixində 01/C-9782-18 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"unibank mobile - hər kəsə yaxın"** əmtəə nişanı 27.05.2019-cu il tarixində 2019 0254 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"U - Unibank"** əmtəə nişanı 24.06.2020-ci il tarixində 2020 0694 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;

- Emitentin **"unibank - Sənin bankın"** əmtəə nişanı 02.11.2020-ci il tarixində 2020 0922 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"Albalı +, Arzuları Reallaşdıran Kart"** əmtəə nişanı 21.10.2020-ci il tarixində 2020 0890 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"uBank - unibank mobil əlavəsi"** əmtəə nişanı 31.03.2021-ci il tarixində 2021 0321 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"uCard unibank"** əmtəə nişanı 04.06.2021-ci il tarixində 2021 0771 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"Leobank"** əmtəə nişanı 29.07.2021-ci il tarixində 2021 1496 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"UPoint Unibank"** əmtəə nişanı 14.04.2022-ci il tarixində 2022 0813 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb.

**4.6. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onu əsaslandırması:**
Mövcud deyil.

## 5. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK

**5.1. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:**

"Unicapital" İnvestisiya Şirkəti Açıq Səhmdar Cəmiyyəti (səhmdar). Emitentin ASC-nin nizamnamə kapitalında payı 100% təşkil edir. Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, Rəşid Behbudov küç. 55 384-cü məhəllə. VÖEN: 1401258741

"MilliKart" Məhdud Məsuliyyətli Cəmiyyət (payçı). Emitentin MMC-nin nizamnamə kapitalında payı 8 % təşkil edir. Ünvan: Azərbaycan Respublikası, Bakı şəh., Alı Mustafayev, 5A. VÖEN: 1400980591

S.W.I.F.T (Ümumdünya Banklararası Maliyyə Telekommunikasiya Cəmiyyəti). SWIFT korporativ üzvlüyə malik olan və təhlükəsiz maliyyə mesajlaşma xidmətləri üzrə dünyanın aparıcı provayderidir. Emitentin onun nizamnamə kapitalında payı 3,43% təşkil edir.SWIFT-in mesajlaşma xidmətləri dünyanın 200-dən çox ölkəsində və ərazilərində 11000-dən çox maliyyə qurum tərəfindən istifadə olunur və etibarlıdır. SWIFT-in standartlaşdırma sahəsində rolu banklar və digər maliyyə institutları arasında təhlükəsiz, maneəsiz və avtomatlaşdırılmış maliyyə əlaqələrini təmin etməkdir. Ünvan: 1, Avenue Adèle, B-1310 La Hulpe (Belçika) RPM Nivelles – VAT BE 0413.330.856 e-mail: shareholding@swift.com Fax: +32 2 655 4036; Tel: +32 2 655 4490 (https://www.swift.com)

Azərbaycan Kredit Bürosu MMC. Emitentin MMC-nin nizamnamə kapitalında payı 12.50 % təşkil edir. Ünvan:Bakı şəhəri, S.Vurgun küçəsi 43, VÖEN 1305349901.

Unibank
Sənin Bankın

Azərbaycan Banklar Assosiyasiyası (ABA) - üzv

AR Ticarət-Sənaye Palatası - üzv

Azərbaycanda Amerika Ticarət Palatası (AMCHAM) - üzv

Alman Azərbaycan Xarici Ticarət Palatası İctimai Birliyi – üzv

**5.2. Emitentin bütün törəmə və digər müəssisələrdə iştirakının payı (faizlə), onların tam adı, olduğu yer:**
Hazırkı Emissiya Prospektinin "Xülasə" hissəsinin 2.5-ci bəndində açıqlanır.

## 6. EMİTENTİN ƏSAS VƏSAİTLƏRİ

**6.1 Emitentin icarəyə verilmiş, mövcud olan və əldə olunması nəzərdə tutulan əsas vəsaitləri:**

| № | Mövcud olan əsas vəsaitlər | Balans dəyəri |
|---|---|---|
| 1 | İnvestisiya mülkiyyəti, bina və qurğular | 47,638,409.00 |
| 2 | Mebel, kompyuter və texnika | 21,272,632.00 |
| 3 | Nəqliyyat | 1,323,919.00 |
| 4 | Digər əsas vəsaitlər | 671,895.00 |
| 5 | Qeyri-maddi aktivlər | 14,400,375.42 |
| | **Cəmi məbləği** | **85,307,230.42** |

**6.2 Əsas vəsaitlərin istifadəsinə təsir edə biləcək ətraf mühitlə (emitentin fəaliyyət istiqamətindən asılı olaraq əsas vəsaitlərin xarici amillərin təsiri altında baş verə biləcək dəyişiklik ) bağlı olan amillərin təsviri:**

Əsas vəsaitlərin istifadəsinə təsir edə biləcək ətraf mühitlə bağlı olan amillər, yəni insan fəaliyyətindən asılı olmayan təbii hadisələr (təbii fəlakət, zəlzələ, daşqın, tufan, qasırğa, ildırım və s.) və ya texnogen hadisələrin baş verməsindən Emitentin əsas vəsaitləri (investisiya mülkiyyəti, bina və qurğular, mebel, komputer və texnika vasitələri, nəqliyyat vasitələri və digər əsas vəsaitləri: bankomatlar, "cash-in") sığortalanır.

## 7. EMİTENTİN MALİYYƏ VƏ ƏMƏLİYYAT NƏTİCƏLƏRİNİN İCMALI

**7.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) mənfəət və zərər göstəriciləri:**
Hazırkı Emissiya Prospektinin "Xülasə" hissəsinin 2.9-cu bəndində açıqlanır.

**7.2. Emitentin maliyyə vəziyyətində dəyişikliklər baş verdiyi halda həmin dəyişikliklər və onlar barədə məlumat:**

- 16.03.2012-ci il tarixində hər birinin nominal dəyəri 2.72 manat olan 20 796 000 ədəd adi adlı sənədsiz səhmlərin buraxılışı nəticəsində emitentin nizamnamə kapitalı 61 565 160 manata artırılmışdır;
- 18.05.2017-ci il tarixində hər birinin nominal dəyəri 2.72 manat olan 18 059 226 ədəd adi adlı sənədsiz səhmlərin buraxılışı nəticəsində emitentin nizamnamə kapitalı 119 686 326, 72 manata artırılmışdır;
- 23.08.2017-ci il tarixində hər birinin nominal dəyəri 2.72 manat olan 5 147 100 ədəd imtiyazlı səhmlərin 5 147 100 ədəd adi adlı sənədsiz səhmlərlə dəyişdirilməsi (konvertasiya) nəticəsində emitentin adi adlı sənədsiz səhmlərinin sayı 44 002 326 ədədə çatdırılmış, imtiyazlı səhmlər isə ləğv olunmuşdur.
- 2017-ci ilin mart ayında emitent "Unileasing" QSC törəmə şirkətinə öz payını satıb.
- 12.12.2017-ci il tarixində hər birinin nominal dəyəri 2.72 manat olan 2 205 892 ədəd adi adlı sənədsiz səhmlərin buraxılışı nəticəsində emitentin nizamnamə kapitalı 125 686 355, 68 manata artırılmışdır;
- 21.10.2021-ci il tarixində hər birinin nominal dəyəri 2.72 manat olan 1 838 236 ədəd adi adlı sənədsiz səhmlərin buraxılışı nəticəsində emitentin nizamnamə kapitalı 130 686 357.60 manata artırılmışdır;
- 11.08.2022-ci il tarixində hər birinin nominal dəyəri 2.72 manat olan 4 375 000 ədəd adi adlı sənədsiz səhmlərin buraxılışı nəticəsində emitentin nizamnamə kapitalı 142 586 357.60 manata artırılmışdır;

**7.3. Emitentin əməliyyatlardan gələn gəlirinə təsir edən amillər və gəlirin bundan nə qədər asılı olduğunu göstərən faktorlar:**

Ölkədəki ÜDM-in azalması tempinin səngiməsi və real iqtisadiyyatın canlanması müşahidə edilməkdədir. Azərbaycan manatının və eləcə də ticarət partnyorlarının məzənnədəki korreksiyalar nəticəsində ölkədə inflyasiya idxalı qiymətlərin artımına səbəb olmuşdur. Bununla belə, istehsal olunan mal və göstərilən xidmətlərin dünya bazarında rəqabətliliyi artmış, ölkənin ixrac potensialının artımı yönündə struktural islahatlar aparılmışdır. Bunlar Emitentin iqtisadiyyatda aracılığını artırmış və qeyri-faiz gəlirlərinə müsbət təsir etmişdir. Qeyd etmək lazımdır ki, qeyri-nağd ödənişlərin artması emitentin ucuz maliyyə vasitələrinə çıxışını asanlaşdırmış və beləliklə faiz marjasına müsbət təsir etmişdir. Bununla yanaşı, emitentin dyurasiya qəpinin müsbət zonada olması bazardakı faiz dərəcələrinin aşağı enməsinə emitentin əməliyyatlardan əldə etdiyi gəlirləri artırır.

**7.4. Xalis satışlarda və ya gəlirlərdə dəyişikliklər maliyyə hesabatlarında açıqlandığı halda bu dəyişikliklərin səbəblərinin təsviri:**

Qeyri-nağd ödənişlərin stimullaşdırılması fonunda emitentin qeyri-faiz gəlirləri artmışdır. Əlavə olaraq, ölkədə rəqəmsallaşma yönündə aparılan islahatlar və innovasiyalar emitentin rəqəmsal satışlarının əhatəliliyini artırmışdır. Bu öz növbəsində emitentin satışlarını artırmaqla yanaşı əməliyyat xərclərini də optimallaşdırmağa şərait yaradır.

**7.5. İqtisadi, fiskal, monetar, siyasi və digər amillərin emitentin əməliyyatlarına təsir etmiş və ya birbaşa və ya dolayı yolla təsir edə bilən faktorlar barədə məlumat:**

Ölkədə aparılan iqtisadi islahatlar ümumilikdə bankların fəaliyyətinə müsbət təsir göstərmişdir. Belə ki, son dövrlərdə qeyri-nağd ödənişlərin həcmindəki xüsusi artım və kölgə iqtisadiyyatının kiçilməsi tendensiyaları müşahidə edilməkdədir. Əlavə olaraq, ölkədə elektron hökümətin daha da təkmilləşdirilməsi emitent faiz və qeyri-faiz gəlirlərini artırmaqla yanaşı, riskləri daha düzgün ölçməsinə şəraut yaradır.

## 8. EMİTENTİN KAPİTAL RESURSLARI

**8.1. Emitentin kapital qoyuluşları (qısa və uzun müddətli):**

Hazırkı Emissiya Prospektinin "Xülasə" hissəsinin 2.9-cu bəndində açıqlanır.

**8.2. Emitentin pul vəsaitlərinin hərəkətinin mənbələrinin və məbləğlərinin izahı və təsviri:**

Hazırkı Emissiya Prospektinin "Xülasə" hissəsinin 2.9-cu bəndində açıqlanır.

Emitentin borclanma ehtiyacları və maliyyələşmə strukturu barədə məlumat:

Hal-hazırda emitentin borclanma ehtiyacları mövcüd deyil. Lakin emitentin borclanma ehtiyacları yarandığı təqdirdə, emitent qanunla nəzərdə tututlan bütün vasitələrdən istifadə etməklə, vəsaitləri cəlb edə bilər. Emitentin Nizamnamə kapitalı və "Banklar haqqında" Qanunun 32-ci maddəsində nəzərdə tutulmuş fəaliyyətlər nəticəsində əldə olunan bütün gəlirlər emitentin maliyyələşmə strukturunu təşkil edir.

**8.3. Emitentin əməliyyatlarına birbaşa və ya dolayı yolla təsir etmiş və ya təsir edə bilən kapital qoyuluşlarının istifadəsinə dair hər hansı bir məhdudiyyətlərlə əlaqəli məlumat:**

Emitentin əməliyyatlarına birbaşa və ya dolayı yolla təsir etmiş və ya təsir edə bilən kapital qoyuluşlarının istifadəsinə dair hər hansı bir məhdudiyyətlər "Banklar haqqında" Qanunun 22.2, 22.3, 30 və 33-cü maddələrində təsvir olunmuşdur.

"Banklar haqqında" Qanunun 22.2-ci maddəsinə əsasən, bank, kapitalına mühüm iştirak payı olan şəxsin başqa hüquqi şəxsin kapitalında mühüm iştirak payını əldə etməsindən və ya artırmasından xəbər tutan kimi bu barədə maliyyə bazarlarına nəzarət orqanına yazılı bildiriş göndərməlidir.

Unibank
Sənin Bankın

Həmin Qanunun 22.3-cü maddəsinə əsasən, bank, kapitalında mühüm iştirak payı olan hüquqi şəxsin kapitalında hər hansı şəxsin mühüm iştirak payını əldə etməsindən və ya artırmasından xəbər tutan kimi bu barədə maliyyə bazarlarına nəzarət orqanına yazılı bildiriş göndərməlidir.
Həmin Qanunun 30.1-ci maddəsinə əsasən, Bankın başqa hüquqi şəxsdə iştirak payı əldə etməsi aşağıdakı hallardan birinə səbəb olarsa, bank həmin payı əldə etmək hüququna malik deyildir:

- iştirak payının balans məbləği bankın məcmu kapitalının 10 faizindən çox olduqda;
- bankın bütün bu cür iştirak paylarının məcmu balans məbləği bankın məcmu kapitalının 40 faizindən çox olduqda.

Həmin Qanunun 33-cü maddəsinə əsasən, "Banklar haqqında" Qanunun 32-ci maddəsində icazə verilmiş fəaliyyət növləri istisna olmaqla, heç bir bank topdansatış və ya pərakəndə ticarət, istehsal, nəqliyyat, kənd təsərrüfatı, yataqların işlənilməsi, tikinti və sığorta fəaliyyəti ilə məşğul ola və ya sığorta təşkilatları istisna olmaqla tərəfdaş, şərik və ya payçı kimi bunlarda iştirak edə bilməz.
Öhdəlik üzrə tələblərini ödəmək məqsədilə bank yalnız maliyyə bazarlarına nəzarət orqanının icazəsi ilə və yalnız icazədə göstərilən müddət ərzində yuxarıda göstərilən fəaliyyət növlərini həyata keçirə və ya həmin fəaliyyət növlərini həyata keçirən hüquqi şəxslərdə tərəfdaş, şərik və ya payçı kimi iştirak edə bilər.

8.4. **Bu Emissiya Prospektinin 3.6-cı və 7.1-ci bəndlərində qeyd olunmuş öhdəlikləri yerinə yetirmək üçün tələb olunan vəsaitlərin mənbələri barədə məlumat:**

Bu Emissiya Prospektinin 3.6 və 7.1-ci bəndlərində qeyd olunmuş öhdəlikləri yerinə yetirmək üçün tələb olunan vəsaitlərin mənbəsi qismində emitentin fəaliyyəti nəticəsində əldə olunan bütün gəlirlər çıxış edir.

## 9. TƏDQİQATLAR, LİSENZİYALAR VƏ PATENTLƏR

**9.1. Son üç maliyyə ili ərzində emitentin hesabına aparılmış tədqiqat və inkişaf fəaliyyətlərinə sərf olunmuş məbləğ daxil olmaqla, emitentin tədqiqatları, patentləri, əqli mülkiyyət obyektləri və lisenziyaları barədə məlumat:**

- Emitentin **"unibank mobile - hər kəsə yaxın"** əmtəə nişanı 27.05.2019-cu il tarixində 2019 0254 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"U - Unibank"** əmtəə nişanı 24.06.2020-ci il tarixində 2020 0694 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"unibank - Sənin bankın"** əmtəə nişanı 02.11.2020-ci il tarixində 2020 0922 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"Albalı +, Arzuları Reallaşdıran Kart"** əmtəə nişanı 21.10.2020-ci il tarixində 2020 0890 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;

- Emitentin **"uBank - unibank mobil əlavəsi"** əmtəə nişanı 31.03.2021-ci il tarixində 2021 0321 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"uCard unibank"** əmtəə nişanı 04.06.2021-ci il tarixində 2021 0771 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"Leobank"** əmtəə nişanı 29.07.2021-ci il tarixində 2021 1496 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb;
- Emitentin **"UPoint Unibank"** əmtəə nişanı 14.04.2022-ci il tarixində 2022 0813 nömrəsi ilə dövlət reyestrində qeydiyyata alınıb.

## 10. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT

**10.1. Cari maliyyə ilinin əvvəlindən səhm buraxılışı haqqında qərarın qəbul edilməsi tarixinədək emitentin fəaliyyət göstərdiyi iqtisadi sahədə (istehsalat, satışların həcmi və mal-material ehtiyatları, xərclər və satış qiymətləri) müşahidə olunan tendensiyalar:**
**Rəqəmsallaşmanın tətbiqi.**

Emitentin strateji prioritet olaraq müəyyən etdiyi rəqəmsal və texnoloji transformasiya bankın həm riteyl, həm də korporativ bankçılıq üzrə rəqəmsallaşmanın sürətli tətbiqinə xüsusi önəm verdiyinin göstəricisidir. 7/24 rəqəmsal filialların istifadəyə verilməsi, rəqəmsal xidmət kanallarının genişləndirilməsi, mobil bank və internet bankçılıq üzrə qabaqcıl texnologiyaların və yeniliklərin tətbiqi həm müştəri məmnuniyyətinin və xidmət keyfiyyətinin, həm də əməliyyat effektivliyinin artırılmasına səbəb olacaqdır. Texnoloji transformasiya yalnız filial prosesləri və məhsulları ilə məhdudlaşmadığından, Data mining alətlərinin geniş tətbiqi real-zamanda məlumat təhlilinə şərait yaradır və strateji və əməliyyat qərarlarının qəbul edilməsində məlumatların önəmini artırır.

**İstehlakçı inamının qorunması və məlumatların təhlükəsizliyi.**

Rəqəmsallaşmanın sürətlənməsi ilə istehlakçı və bank arasında onlayn informasiya mübadiləsinin kəskin artması müştərinin bankın IT sisteminə və məlumat təhlükəsizliyinə olan tələblərini daha da artırır. Bu tendensiyanın fonunda Bank IT sistemlərinin optimallaşdırılması, IT və kiber təhlükəsizlik, rəqəmsal dələduzluğun önlənməsi üzrə texnologiyaların tətbiqi, əməliyyat zamanı meydana gələn uğursuz cəhdlərin və gecikmə müddətinin minimallaşdırılmasını əsas amillərdən biri kimi qiymətləndirir. Bankın müştərilər ilə müxtəlif platformalar üzərindən kommunikasiyasının gücləndirilməsi, "Sənin Bank"ın sloqanı ilə bazarda yenidən mövqelənərək müştəri ehtiyaclarına və istəklərinə daha yaxşı uyğunlaşması, korporativ sosial məsuliyyət fəaliyyətlərinin aktiv icrası istehlakçı inamının qorunması və gücləndirilməsinə yönəlik fəaliyyəti kimi dəyərləndirilir.

**İqtisadi faktorlar.**

Post-pandemiya dövründə ölkədə iqtisadi fəallığın artması, dövlətin iqtisadiyyatın ağardılması, nağdsız dövriyyənin artırılması, sosial müavinatların artırılması üzrə tədbirləri, işğaldan azad edilmiş ərazilərdə tikinti və yenidən qurma işlərinin sürətli icrası iqtisadiyyata əlavə investisiyaların cəlbini artırmaqla, ümumilikdə bazar subyektlərinin iqtisadi fəallığının artmasına müsbət təsir edir. Maliyyə Nazirliyinin məlumatlarına əsasən, cari ilin ilk beş ayında ölkədə 50,9 milyard manatlıq, o cümlədən qeyri-neft-qaz sektorunda 25 milyard manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə ÜDM real ifadədə 7,2 faiz, o cümlədən qeyri neft sektoru üzrə ÜDM 11,0 faiz artıb. Bu isə biznes kreditləşməsində öz müsbət təsirini göstərməkdədir (Bankın SME və Mikro biznes portfelində müsbət inkişaf tendensiyası müşahidə edilməkdədir). Rusiya-Ukrayna müharibəsi fonunda müxtəlif makroiqtisadi faktorların təsiri ilə istehlak qiymətləri indeksi yanvar-may ayları ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə 12.6% artmışdır ki, nəticədə bunun borcalanların kredit ödəmə qabiliyyətinə mənfi təsir etməsi gözlənilir.

**Sosial Faktorlar**

Pandemiya dövründə insanların gündəlik yaşayışında və davranışlarında olan dəyişikliklər xidmət sahələrində rəqəmsal aktivliyin artmasını şərtləndirən bir amil olmuşdur. "Y" və "Z" nəslinin onlayn əməliyyatlara üstünlük verməsi rəqəmsal transformasiyanı sürətləndirən başqa bir faktor olaraq qeyd edilə bilər (2021-ci il ərzində ölkədaxili nağdsız əməliyyatların həcmi keçən ilin 12 ayı ilə müqayisədə 83% artmışdır). Emitent bankın müştəri bazasında gənc nəslin üstünlük təşkil etməsi rəqəmsallaşma üzrə strateji hədəflərin uğurlu icrasını şərtləndirir. Əlavə olaraq müştərilərin maliyyə savadlılığının və banklara olan güvəninin artırılması bankçılığın inkişafında önəmli şərt olaraq dəyərləndirilir.

**10.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:**

Cari maliyyə ili dövründə Azərbaycan və ümumilikdə dünya iqtisadiyyatı üçün Covid-19-la əlaqədar məhdudiyyətlərin tədricən yumşaldılması və aradan qaldırılması, Şimal qonşumuz və əsas ticarət tərəfdaşlarımızdan biri olan Rusiyaya qarşı Ukrayna ilə hərbi münaqişə səbəbi ilə ciddi iqtisadi sanksiyaların tətbiq olunması, beynəlxalq

tədarük zəncirində problemlərin yaranması inflyasiyanın qlobal miqyasda artmasına səbəb olmuşdur. Bütün bunlar dünya iqtisadiyyatında stagflyasiya risklərini aktuallaşdırmaqdadır. Dünya iqtisadiyyatındakı geriləmə inkişaf etməkdə olan ölkələrə sıçrama riski var. Eləcə də, əmtəə qiymətlərinin rekord səviyyələrə çatması Azərbaycanın əsas ixrac məhsulu olan neft-qaz qiymətlərinin volatil olmasına təsir edir.

## 11. GƏLİR PROQNOZU

Mövcud deyil.

## 12. EMİTENTİN TƏSİSÇİLƏRİ, İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI

**12.1. Emitentin idarəetmə və nəzarət orqanlarının üzvü olan hər bir şəxs barədə aşağıdakı məlumatlar:**

**Emitentin ali idarəetmə orqanı:**

Səhmdarların Ümumi Yığıncağıdır. Səhmdarların Ümumi Yığıncağı illik və növbədənkənar keçirilir. Emitentin səhmdarlarının ümumi sayı 10-dur.

**İdarə Heyəti Barədə məlumat:**

Unibank
Sənin Bankın

| | ASA | Hazırda tutduğu vəzifə | Son 5 il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə | Təhsili - Universitet | İxtisas | Emitentin nizamnamə kapitalında payı (faizlə) və ya emitentin səhmlərinə olan opsionları |
|---|---|---|---|---|---|---|
| 1 | Hüseynov Faiq Arif oğlu | **İdarə Heyətinin Sədri** | 2017/23-11-2021-İdarə Heyətinin Sədri (Unibank KB),<br><br>24-11-2021/bugünədək-İdarə Heyətinin Sədri/ Baş Risk İnzibatçısı (Unibank KB) | Azərbaycan İnşaat Mühəndisləri İnstitutu | Tikintinin iqtisadiyyatı və təşkili | 0.2797 |
| 2 | Abuşov Fərid Şakir oğlu | Üzv | 2017/03-06-2019-İdarə Heyətinin Sədri (Demir Bank ASC),<br><br>10-06-2019/02-02-2020-Müşahidə Şurası Sədrinin strateji inkişaf məsələləri üzrə Müşaviri (Unibank KB),<br><br>03-02-2020/30-09-2020-İdarə Heyətinin üzvü/ İdarə Heyətinin Sədrinin Müavini (Unibank KB),<br><br>01-10-2020/23-11-2021-İdarə Heyətinin Sədrinin müavini/ İcraçı Direktorun birinci müavini/ Baş Risk İnzibatçısı-(Unibank KB),<br><br>24-11-2021/bugünədək-İdarə Heyətinin Sədrinin birinci müavini/ İcraçı Direktor(Unibank KB). | 1. University of London<br>2. (Univercity College London)<br>3. University of London (Royal Holloway and Bedford New College)<br>4. Royal Holloway University of London (University Foundation Programme) Azərbaycan Dövlət İqtisad Universiteti | 1. Economics<br>2. Economics<br>3. Foundation Programme<br>4. Ümumi iqtisadiyyat | yoxdur |
| 3 | Qədirov Heybət Həsənağa | Üzv | 2017/31-01-2019-Biznesin inkişafı departamentinin Direktoru (Unibank KB),<br><br>01-02-2019/23-11-2021-Pərakəndə Biznes üzrə baş | 1. Azərbaycan Dövlət İqtisad Universiteti<br>2. Azərbaycan Dövlət İqtisad Universiteti | 1. Maliyyə və kredit<br>2. Maliyyə və kredit | yoxdur |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | İnzibatçı (Unibank KB),<br><br>24-11-2021/28-12-2021-Pərakəndə Biznes üzrə baş İnzibatçı/ İcraçı Direktorun birinci müavini (Unibank KB),<br><br>29-12-2021/bugünədək-İdarə Heyətinin üzvü/ İcraçı Direktorun Birinci müavini (Unibank KB). | | | |
| 4 | Zeynalov Faiq Vahib oğlu | Üzv | 2017/30-06-2021-Audit komitəsinin Sədri (Unibank KB),<br><br>01-07-2021/bugünədək-İdarə Heyətinin üzvü/Baş maliyyə inzibatçısı (Unibank KB). | Azərbaycan Dövlət İqtisad İnstitutu, hal-hazırda Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı şəhəri, Azərbaycan Respublikası | İqtisadçı | yoxdur |
| 5 | Rəsulzadə Emin Fərid oğlu | Üzv | 2017/31-05-2017-Maliyyə üzrə Direktor/İdarə Heyətinin üzvü/İcraçı Direktorun birinci müavini/Baş maliyyə inzibatçısı (Unibank KB),<br><br>01-06-2017/03-07-2017-İdarə Heyətinin üzvü/İcraçı Dir.birinci müavini/Baş maliyyə inzibatçısı (Unibank KB),<br><br>04-07-2017/05-09-2017-İdarə Heyətinin üzvü/İdarə Heyətinin Sədrinin biznesin inkişafı və innov-r üzrə Müavini/Baş maliyyə inzibatçısı (Unibank KB),<br><br>02-04-2018/16-08-2018-İdarə Heyəti sədrinin müşaviri (Банк МБА Москва), | Azərbaycan Dövlət Neft Akademiyası | Mühəndis- elektrik | yoxdur |

Unibank
Sənin Bankın

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | 17-08-2018/09-06-2021-İdarə Heyəti sədrinin müavini (Банк МБА Москва),<br><br>10-06-2021/07-07-2021-Müşahidə Şurası Sədrinin Maliyyə meselələri üzrə Müşavirı (Unibank KB),<br><br>08-07-2021/bugünədək-İdarə Heyətinin üzvü (Unibank KB). | | | |

## Audit komitəsi barədə məlumat:

| | ASA | Hazırda tutduğu vəzifə | Son 5 il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə | Təhsili - Universitet | İxtisas | Emitentin nizamnamə kapitalında payı (faizlə) və ya emitentin səhmlərinə olan opsionları |
|---|---|---|---|---|---|---|
| 1 | Balayev Samir Həsən oğlu | Audit Komitəsinin Sədri | 2017/30-06-2021-Müşahidə Şurası Sədrinin Müşaviri (Unibank KB),<br><br>01-07-2021/bugünədək-Audit komitəsinin Sədri(Unibank KB). | 1. Saratov Hüquq İnstitutu, hal-hazırda Saratov Dövlət Hüquq Akademiyası, Saratov şəhəri, Rusiya Federasiyası,<br>2.Azərbaycan Dövlət İqtisad İnstitutu, hal-hazırda Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı şəhəri, Azərbaycan Respublikası | 1. Hüquqşünas<br>2. İqtisadçı | yoxdur |
| 2 | Tağıyeva Səbinə Ramizovna | Üzv | 2017/2018-Layihələr və konsaltinq dep-n Müdiri (V. E. S. Consultancy LLC-**Əsas iş yeri**)<br><br>2018/bugünədək-Maliyyə və konsultasiya üzrə Direktor müavini (Vneshexpertservice LLC-**Əsas iş yeri**)<br><br>2017/bugünədək-Audit komitəsinin üzvü | Azərbaycan Dövlət Neft Kimya İnstitutu | Dağ mühəndisi | yoxdur |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | (Unibank KB-Əlavə iş yeri) | | | |
| 3 | Hüseynov Adil Şeyruz oğlu | Üzv | 2017/bugünədək Baş direktor-Azerekspertiza (Azərbaycan Ticarət və Sənaye Palatası - Əsas iş yeri)<br><br>2017/bugünədək-Audit komitəsinin üzvü (Unibank KB-Əlavə iş yeri) | Azərbaycan Dövlət Xalq təsərrüfatı İnstitutu | İqtisadçı, Əmtəəşünas | yoxdur |

## Müşahidə Şurası barədə məlumat:

| | ASA | Hazırda tutduğu vəzifə | Son 5 il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə | Təhsili - Universitet | İxtisas | Emitentin nizamnamə kapitalında payı (faizlə) və ya emitentin səhmlərinə olan opsionları |
|---|---|---|---|---|---|---|
| 1 | Qəribov Eldar Mahmud | **Müşahidə Şurasının Sədri** | Müşahidə Şürasının Sədri (Unibank KB) | 1. Azərbaycan Dövlət Universiteti<br>2. Azərbaycan Dövlət İqtisad Universiteti<br>3. Moskva Dövlət Sosial Universiteti | Fizika<br>İqtisadçı<br>Hüquqşünas | 86.6960 |
| 2 | Qəribli Elxan Əhməd oğlu | Üzv | | 1. Azərbaycan Poletexnik İnstitutu<br>2. Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universiteti | Mühəndis-mexanik<br>Hüquqşünas | yoxdur |
| 3 | Quliyev Emin Natiq oğlu | Üzv | "DİVİ Distribution Company" Baş direktor | 1. Azərbaycan Respublikası Neft və Kimya İnstitutu | Mühəndis | 0.3592 |
| 4 | Kamen Zahariyev | Üzv | Access Microfinance Holding AG, Müşahidə Şurasının sədri | 1. Moskva Beynəlxalq Əlaqələr İnstitutu<br>2. Dövlət və hüquq İnstitutu | 1. Beynəlxalq hüquq<br>2. Beynəlxalq hüquq | yoxdur |
| 5 | Kristof Gabriel Maetze Engelhardt | Üzv | Boston Consulting Group GmbH, Boston Consulting Group, İnc. şirkətinin tərkib hissəsi Baş Məsləhətçi | 1. Kommezbank və Sənaye və Ticarət Palatası | "ixtisaslaşmış bankir" diplomu, | yoxdur |

**12.1.1. bu şəxslər arasında olan hər hansı yaxın qohumluğun mövcudluğu haqqında məlumat;**
Qohumluq əlaqələri mövcud deyil

**12.1.2. son beş il ərzində şəxsin vəzifə saxtakarlığı ilə bağlı məhkumluğun olub-olmaması haqqında məlumat;**
Mövcud deyil

**12.1.3. şəxsin hər hansı bir hüquqi şəxsin idarə edilməsində rəhbər vəzifə tutduğu zaman həmin hüquqi şəxsin ləğv olunması, müflis elan olunması və ya müflisləşmə prosesinin başlanması haqqında məlumat;**
Mövcud deyil

**12.1.4. şəxsin xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə məlumat;**
Azərbaycan Respublikası Mülki Məcəllesinin 107-10.5-ci maddəsinə əsasən cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə Mülki Məcəllənin 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı cəmiyyətin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda, səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər. Cəmiyyətin maraqlarına zidd olan əqdlərin bağlanılması, müvafiq olaraq, Mülki Məcəllə, "Banklar haqqında" və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları ilə ayrı qayda nəzərdə tutulmamışdırsa, müvafiq idarəetmə orqanının qərarı əsasında həyata keçirilə bilər.

## 13. EMİTENTİN İDARƏEDİLMƏSİNDƏ İŞTİRAK EDƏN ŞƏXSLƏRİN MÜKAFATLANDIRILMASI, İMTİYAZLARI VƏ DİGƏR KOMPENSASİYALARI

**13.1. Emissiya Prospektinin 12.1-ci bəndində göstərilən şəxslərə maliyyə ilinin yekunu ilə əlaqədar ödənilmiş mükafatların (hər hansı şərti və ya təxirə salınmış kompensasiyalar da daxil olmaqla) məbləği, emitent və onun törəmə şirkətləri tərəfindən həmin şəxslərə göstərilən xidmətlər:**
2021-ci il ərzində heç bir ödəniş olmayıb.

**13.2. Kompensasiya və ya yardımlar vermək məqsədilə emitent və ya emitentin törəmə müəssisələri tərəfindən ayrılmış məbləğlər:**
2021-ci il üzrə heç bir ödəniş məbləği ayrılmayıb.

## 14. İDARƏ HEYƏTİNİN İŞGÜZAR PRAKTİKASI

**14.1. Maliyyə ilinin nəticələrinə əsasən Emissiya Prospektinin 12.1-ci bəndində göstərilən şəxslər haqqında aşağıdakı məlumatlar:**

14.1.1. cari vəzifədə xidmət etdiyi müddət və səlahiyyət müddətinin başa çatma tarixi:

**İdarə Heyəti üzvlərinin səlahiyyət müddətləri**

| № | İdarə Heyəti üzvlərinin soyadı, adı, atasının adı | Vəzifəsi | Bankın Səhmdarlarının Ümumi Yığıncağının qərarının tarixi, protokolun nömrəsi | Bankın İdarə Heyəti üzvlərinin səlahiyyət müddətinin başlama tarixi | Bankın İdarə Heyəti üzvlərinin səlahiyyət müddətinin bitmə tarixi |
|---|---|---|---|---|---|
| 1. | Hüseynov Faiq Arif oğlu | İdarə Heyətinin Sədri | 17.11.2021, 5 saylı protokol | 13.12.2021-ci il<br><br>Əsas: MB-nin 16-06526-2021 saylı, 23.11.2021-ci il tarixli məktubu | 13.12.2024 |
| 2 | Fərid Abuşov Şakir oğlu | İdarə Heyətinin üzvü, İdarə Heyətinin Sədrinin birinci müavini | 17.11.2021, 5 saylı protokol | 13.12.2021-ci il<br><br>Əsas: MB-nin 16-06526-2021 saylı, 23.11.2021-ci il tarixli məktubu | 13.12.2024 |
| 3 | Faiq Vahib oğlu Zeynalov | Bankın İdarə Heyətinin üzvü, Baş Maliyyə İnzibatçısı | 19.05.2021 2 saylı protokol | 19.05.2021-ci il<br><br>Əsas: MB-nin 16-02550-2021 saylı, 30.06.2021-ci il tarixli məktubu | 19.05.2024 |
| 4 | Emin Rəsulzadə Ferid oğlu | İdarə Heyətinin üzvü | 24.06.2021 3 saylı protokol | 24.06.2021 -ci il<br><br>Əsas: MB-nin 16-02801-2021 saylı, 06.07.2021-ci il tarixli məktubu | 24.06.2024 |
| 5 | Heybət Həsənağa oğlu Qədirov | İdarə Heyətinin üzvü | 17.11.2021 , 5 saylı protokol | 17.11.2021 -ci il<br><br>Əsas: MB-nin 01.16-2-2021-1135 saylı, 28.12.2021-ci il tarixli məktubu | 17.11.2024 |

**Audit Komitəsinin üzvlərinin səlahiyyət müddətləri**

| № | Audit Komitəsi üzvlərinin soyadı, adı, atasının adı | Vəzifəsi | Bankın MŞ qərarının tarixi, protokolun nömrəsi | Audit Komitəsi üzvlərinin səlahiyyət müddətinin başlama tarixi | Audit Komitəsi üzvlərinin səlahiyyət müddətinin bitmə tarixi |
|---|---|---|---|---|---|
| 1 | Samir Həsən oğlu Balayev | Audit Komitəsinin üzvü/Audit Komitəsinin Sədri | 04.05.2021 2 saylı protokol | 19.05.2021 -ci il<br><br>Əsas: MB-nin 16-01759-2021 saylı, | 19.05.2024 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | 03.06.2021-ci il tarixli məktubu | |
| 2 | Hüseynov Adil Şeyruz oğlu | Audit Komitəsinin üzvü | 10.12.2021<br>8 saylı protokol | 13.12.2021 -ci il<br>Əsas: MB-nin 01-2-2021-751 saylı, 21.12.2021-ci il tarixli məktubu | 13.12.2024 |
| 3 | Tağıyeva Səbinə Ramizovna | Audit Komitəsinin üzvü | 10.12.2021<br>8 saylı protokol | 13.12.2021 -ci il<br>Əsas: MB-nin 01-2-2021-751 saylı, 21.12.2021-ci il tarixli məktubu | 13.12.2024 |

## Müşahidə Şurası üzvlərinin səlahiyyət müddətləri

| № | Müşahidə Şurası üzvlərinin soyadı, adı, atasının adı | Vəzifəsi | Bankın Səhmdarlarının Ümumi Yığıncağının qərarının tarixi, protokolun nömrəsi | Müşahidə Şurası üzvlərinin səlahiyyət müddətinin başlama tarixi | Müşahidə Şurası üzvlərinin səlahiyyət müddətinin bitmə tarixi |
|---|---|---|---|---|---|
| 1. | Qəribov Eldar Mahmud oğlu | Müşahidə Şurasının üzvü/Müşahidə Şurasının Sədri | 09.12.2021<br>6 saylı protokol | 13.12.2021 -ci il<br>Əsas: MB-nin 01-2-2021-610 saylı, 17.12.2021-ci il tarixli məktubu | 13.12.2024 |
| 2. | Quliyev Emin Natiq oğlu | Müşahidə Şurasının üzvü | 09.12.2021<br>01 saylı protokol | 13.12.2021 -ci il<br>Əsas: MB-nin 01-2-2021-610 saylı, 17.12.2021-ci il tarixli məktubu | 13.12.2024 |
| 3. | Qəribli Elxan Əhmed oğlu | Müşahidə Şurasının üzvü | 19.05.2021<br>2 saylı Protokol | *16.06.2021* -ci il<br>Əsas: MB-nin 16-03035-2021 saylı, 14.07.2021-ci il tarixli məktubu | 16.06.2024 |
| 4 | Zaxariyev Kamen Nikolov | Müşahidə Şurasının üzvü | 18.06.2020<br>2 saylı protokol | 18.06.2020 -ci il<br>Əsas: MBNP-nin 1821010004 saylı, 02.04.2018-ci il tarixli məktubu | 18.06.2023 |
| 5 | Kristof Gabriel Maetze-Engelhardt | Müşahidə Şurasının üzvü | 18.03.2020<br>1 saylı protokol | 18.03.2020 -ci il<br>Əsas: MB-nin 27-00477-2020 saylı, | 18.03.2023 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | 04.05.2021-ci il tarixli məktubu | |

14.1.2. səlahiyyətlərinə xitam verilməsi ilə bağlı müavinət vermək üçün emitent və ya onun törəmə müəssisələri ilə inzibati, idarəetmə və ya nəzarət orqanlarının xidmət müqavilələri barədə məlumat:
Mövcud deyil

**14.2. Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:**
Audit Komitəsinin üzvləri barədə məlumat bu Emissiya Prospektinin I hissəsinin 12.1-ci bəndində əks olunmuşdur.

**Audit Komitəsinin gördüyü işlər:**

- Emitentin Audit Siyasətinin və Strategiyasının müəyyən edilməsi;
- Daxili Audit Departamentinin (bundan sonra "DAD" adlandırılacaq) fəaliyyətinə nəzarətin həyata keçirilməsi, DAD-ın iş planı ilə Emitentin maliyyə-təsərrüfat fəaliyyətinin bütün əhəmiyyətli sahələrinin auditinin keçirilməsinin təmin edilməsi, iş planının təsdiq edilməsi və icrasına nəzarətin həyata keçirilməsi;
- Daxili nəzarət sisteminin Emitentin fəaliyyətinin xarakterinə və miqyasına adekvatlığına, nəzarət sisteminin və risklərin idarə edilməsinin səmərəliliyinə DAD tərəfindən fasiləsiz nəzarətin həyata keçirilməsinin təmin edilməsi və bu proseslərin Komitə tərəfindən idarə olunması, nəzarət sisteminin təkmilləşdirilməsinə dair Səhmdarların Ümumi Yığıncağına və Müşahidə Şurasına təkliflərin verilməsi;
- Azərbaycan Respublikasının Mərkəzi Bankı (bundan sonra "Mərkəzi Bank" adlandırılacaq) tərəfindən Emitentə verilmiş Lisenziya ilə nəzərdə tutulmuş bank fəaliyyətinin həyata keçirilməsi zamanı Azərbaycan Respublikasının qanunvericiliyinə və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət orqanlarının normativ xarakterli aktlarının tələblərinə, Emitentin Siyasətləri və bankdaxili korporativ aktlarla (Əsasnamələr, İşçi Təlimatları, Vəzifə Təlimatları və s.) təsbit olunmuş qaydalara, Limitlərə və Tariflərə əməl edilməsinin müəyyən və təhlil edilməsi məqsədilə Emitentin struktur vahidlərinin, əməliyyatlarının, təqdim etdiyi məhsulların və xidmətlərin müntəzəm auditinin keçirilməsinin təmin edilməsi;
- Daxili auditorların audit nəticəsində təqdim etdiyi tövsiyələrin müzakirəsinin təmin edilməsi;
- Daxili audit yoxlamalarının nəticələrinin, təklif və tövsiyələrinin Müşahidə Şurası ilə birgə müzakirə edilməsi;
- Auditlə bağlı mühüm məsələlərin müzakirə edilməsi məqsədi ilə Mərkəzi Bankın, Emitentin idarəetmə orqanlarının və kənar auditorun iştirakı ilə görüşlərin keçirilməsinin təşkil edilməsi;
- Emitentin fəaliyyətinin daxili auditi Audit Komitəsinin təşəbbüsü ilə Səhmdarların ümumi yığıncağının və ya Müşahidə Şurasının qərarı ilə və ya Emitentin səsverme

hüququ verən səhmlərinin on faizindən artıq hissəsinə malik olan səhmdarların və Emitentin İdarə Heyətinin tələbi ilə həyata keçirilməsinin təyin edilməsi;

- Müşahidə Şurasının növbədənkənar iclasının keçirilməsi (zəruriliyini əsaslandırmaqla) təşəbbüsü ilə çıxış edilməsi;
- DAD tərəfindən cari iş planı üzrə aparılmış yoxlamaların nəticələri üzrə "Auditlə aşkarlanmış çatışmazlıqların və uyğunsuzluqların aradan qaldırılması üzrə DAD-ın Tövsiyələri və Təklifləri", habelə DAD ilə razılaşdırılmış "Auditlə aşkarlanmış çatışmazlıqların və uyğunsuzluqların aradan qaldırılması üzrə Tədbirlər Planı" qoşulmuş rüblük hesabatların, həmçinin yuxarıda qeyd olunmuş təşəbbüs əsasında aparılmış yoxlamaların nəticələrinin Komitənin iclaslarında müzakirə edilməsi, razılaşdırılması və Müşahidə Şurasının iclasına təqdim edilməsi;
- Təsərrüfat subyektlərinin icra orqanlarından kənar və daxili auditorların daxili nəzarət sisteminə dair verdikləri tövsiyələrin yerinə yetirilməsinin vəziyyəti barədə məlumatın əldə edilməsi;
- Kənar Auditin təyin edilməsi ilə əlaqədar Emitentin səlahiyyətli idarəetmə orqanlarına təkliflərin verilməsi;
- Kənar Auditlə birgə işin təşkil edilməsi, auditin nəticə və tövsiyələrinin həyata keçirilməsinə yardım edilməsi;
- Kənar auditorla birgə işin təşkili ilə əlaqədar Emitentin fəaliyyətinə dair bütün əhəmiyyətli məlumatların, Emitentin sənədlərinin kənar auditora vaxtında və tam təqdim edilməsi;
- Kənar auditordan audit zamanı aşkar olunan mühüm faktlar və hadisələr haqqında məlumatın dərhal ona verilməsinin tələb edilməsi;
- Kənar auditor, İdarə Heyəti və Emitentin əlaqədar struktur bölmələri ilə birlikdə kənar auditorun hesabatını təhlil və müzakirə edilməsi, çatışmazlıqların və pozuntuların aradan qaldırılması üçün tədbirlər planının hazırlanması üzrə təkliflərin verilməsi;
- Emitentin idarəetmə orqanları ilə Kənar Auditorlar, habelə nəzarət orqanları arasında əlaqələrin qurulması həmçinin auditlə bağlı mühüm məsələlərin müzakirə edilməsi məqsədi ilə Mərkəzi Bankın, Emitentin idarəetmə orqanlarının və kənar auditorun iştirakı ilə görüşlərin keçirilməsinin təşkil edilməsi;
- Audit yoxlaması nəticəsində, Emitentin aktivlərinin bir hissəsinin itirilməsi ilə nəticələnmiş və imicinə xələl gətirə biləcək Bank üçün arzu olunmaz personal risklərin (əlbir olma, fırıldaqçılıq, sui istifadə, mənimsəmə və s.) aşkarlandığı hallarda həmin əməkdaşın yaxud, əməkdaşların fəaliyyətlərini dərhal dayandırmaq və auditor araşdırmalarının sonuna kimi vəzifəsinin icrasından kənarlaşdırılması barədə DAD-ın vəsatətinə əsasən İdarə Heyəti və/və ya Müşahidə Şurası qarşısında məsələnin qaldırılması;
- Kənar və daxili audit və ya digər yoxlamaların gedişində aşkar olunan saxtakarlıq hallarını, nöqsan və çatışmazlıqların müzakirə edilməsi və onların aradan qaldırılması üçün müvafiq idarəetmə orqanına təkliflərin verilməsi;
- Emitentin İdarə Heyətinin daxili auditorlar tərəfindən təqdim olunmuş tövsiyələrin icrasına cəlb edilməsi;
- Emitentin illik və cari maliyyə hesabatlarının hazırlanması prosesinə və nəticələrinə nəzarət edilməsi;
- Maliyyə risklərinin yüksək olduğu sahələrin müəyyənləşdirilməsi və Emitentin İdarə Heyəti tərəfindən onların səmərəli idarə edilməsinə əminliyin əldə edilməsi;

- Maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir edə biləcək hüquqi məsələlərin nəzərdən keçirilməsi və tövsiyələrin verilməsi;
- Auditlə, Emitentin təqdim etdiyi xidmətlərdə və məhsullarda itkilərə gətirə biləcək əhəmiyyətli çatışmazlıqlar aşkarlandığı hallarda həmin əməliyyatların aparılmasının və məhsulların satışının dayandırılması barədə DAD-ın vəsatətinə əsasən İdarə Heyəti və/və ya Müşahidə Şurası qarşısında məsələnin qaldırılması;
- Bankın fəaliyyətinə və əməkdaşlara aid olan hər hansı məlumatlar üzrə müvafiq strukturlara sorğuların verilməsi və bu kimi sorğuların tam həcmdə və göstərilmiş müddətlərdə icrasının tələb edilməsi;
- DAD-ın Əsasnaməsinin hazırlanması, təsdiq edilməsi və DAD-ın saxlanılması xərcləri haqqında Müşahidə Şurasına təkliflərin verilməsi;
- Daxili auditorların vəzifədə irəliləyişi, işdən kənarlaşdırılması və ya azad olunması, habelə mükafatlandırılması barədə Emitentin Müşahidə Şurasına təkliflərin verilməsi;
- Daxili auditorların əmək haqqı və əmək haqqına əlavələr məbləğləriylə bağlı Müşahidə Şurasına təkliflər verilməsi;
- Kənar auditlə bağlı mühüm məsələlərin müzakirə edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət orqanlarının, Emitentin idarəetmə orqanlarının və kənar auditorun iştirakı ilə görüşlərin keçirilməsi;
- Nəzarət orqanları ilə görüşlərin keçirilməsi və onlara Emitentin idarəetmə strukturu və fəaliyyət sistemi haqqında məlumatın verilməsi;
- Müşahidə Şurasına müntəzəm olaraq komitənin fəaliyyət nəticələri barədə hesabat verilməsi.

**Mükafatlandırma komitəsinin üzvləri:**

| No. | Komitənin sədr və üzvləri | |
|---|---|---|
| 1. | Eldar Qəribov | Mükafatlandırma komitəsinin sədri |
| 2. | Faiq Hüseynov | Mükafatlandırma komitəsinin üzvü |
| 3. | Natalya Sandler | Mükafatlandırma komitəsinin üzvü |
| 4. | Fərid Abuşov | Mükafatlandırma komitəsinin üzvü |
| 5. | Faiq Zeynalov | Mükafatlandırma komitəsinin üzvü |
| 6. | Emin Rəsulzadə | Mükafatlandırma komitəsinin üzvü |
| 7. | Heybət Qədirov | Mükafatlandırma komitəsinin üzvü |

**Mükafatlandırma Komitəsinin gördüyü işlər:**

**14.3. Emitentin, qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə izahat.**

Korporativ idarəetmə standartları ilə bağlı tələblər emitentin Nizamnaməsində öz əksini tapmışdır. Emitent öz fəaliyyətində prudensial və fidusiar nəzarətin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət

Palatasının 27.06.2019-cu il tarixli, 1951100027 nömrəli Qərarı ilə təsdiq edilmiş "Banklarda korporativ idarəetmə Standartları"nı rəhbər tutur.

## 15. EMİTENTİN İŞÇİ HEYƏTİ

**15.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) və səhm buraxılışı haqqında qərar qəbul edilənə qədər olan dövr müddətində emitentin müvəqqəti və daimi işçilərin sayını göstərməklə işçilərinin sayı:**

Emitentin müvəqqəti işçiləri (1-3 ay müddətində xidməti müqavilə əsasında işləyənlər) yoxdur.

**Daimi işçilər barədə məlumat:**

2019-cu ilin sonuna – 1244 əməkdaş

2020-ci ilin sonuna – 1402 əməkdaş

2021-ci ilin sonuna – 1670 əməkdaş

2022-ci ilin oktyabr ayının sonuna – 1948 əməkdaş

**15.2. İşçilərin emitentin nizamnamə kapitalında iştirakı:**

| № | İşçinin soyadı, adı, ata adı | Emitentdə tutduğu vəzifə | Nizamnamə kapitalında iştirak payı |
|---|---|---|---|
| 1 | Qəribov Eldar Mahmud oğlu | Müşahidə Şurasının sədri | 86.6960%<br>45 447 313 ədəd səhm |
| 2 | Hüseynov Faiq Arif oğlu | İdarə Heyətinin sədri | 0.2797%<br>146 631 ədəd səhm |
| 3 | Qəribli İlkin Eldar oğlu | Strateji Marketinq və İnnovasiyalar Departamentinin direktoru | 1.6298%<br>854 355 ədəd səhm |

**15.3. Emitentin nizamnamə kapitalına işçiləri cəlb etmək üçün proqramlar haqqında məlumat:**
Mövcud deyil

## 16. EMİTENTİN NİZAMNAMƏ KAPİTALINDA MÜHÜM İŞTİRAK PAYINA SAHİB OLAN SƏHMDARLAR

**16.1. Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan səhmdarların adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

Emitentin nizamnamə kapitalında 10 (on) faizdən artıq iştirak payı olan səhmdarlarınpayı aşağıdakı kimidir:

| | Adi səhmlərin sayı | % | Vətəndaşlıq |
|---|---|---|---|
| **Qəribov Eldar Mahmud oğlu** | 45 447 313 | 86,6960% | Azərbaycan |

**Mühüm iştirak payına sahib olan səhmdarların malik olduğu səhmlər üzrə səs hüquqları barədə məlumat;**

Səhmdarların Ümumi Yığıncağının Qərarları sadə səs çoxluğu ilə qəbul edilir. Belə ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-3.5-ci maddəsinə əsasən Səhmdarların Ümumi Yığıncağında səs vermə "bir səsli səhm - bir səsdir" prinsipi əsasında həyata keçirilir. Qanunvericiliklə və Emitentin Nizamnaməsi ilə nəzərdə tutulmuş bəzi məsələlər müxtəlif səs çoxluğu ilə həll olunur. Belə ki, Səhmdarların Növbədənkənar Ümumi Yığıncağı səsvermə hüququ olan səhmlərin azı 5 (beş) % sahibləri olan səhmdarların, Müşahidə Şurasının, Audit Komitəsinin və ya İdarə Heyətinin tələbi ilə çağırıla bilər.

Nizamnaməyə əlavə və dəyişikliklərin edilməsi, Müşahidə Şurasının üzvlərinin təyin və azad edilməsi, Emitentin satılması, yenidən təşkili, başqa bankın alınması və Emitentin ləğv edilməsi məsələləri üzrə qərarlar isə Ümumi Yığıncaqda təmsil edən səhmdarların 75 (yetmiş beş) % səs çoxluğu ilə qəbul olunur.

**16.2. Mühüm iştirak payına sahib olan səhmdarlar tərəfindən emitentə nəzarətin xüsusiyyətləri və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün tədbirlərin təsviri:**

Mühüm iştirak payına sahib olan səhmdarlar tərəfindən emitentə nəzarətin xüsusiyyətləri hazırkı Emissiya Prospektinin "Xülasə" hissəsinin 2.8-ci bəndində açıqlanır.

Azərbaycan Respublikasının "Banklar haqqında" Qanununun 40.3-cü bəndinə əsasən bankların aidiyyəti şəxslərə digər şəxslərdən fərqli olaraq güzəştli şərtlərlə bank xidmətlərinin göstərilməsi qadağandır. Eyni zamanda, Mülki Məcəllənin 49-1-ci maddəsində aidiyyəti şəxslərlə əqdlərin bağlanması qaydası nəzərdə tutulmuşdur.

**16.3. Mühüm iştirak payına sahib olan səhmdarların dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:**

Emitentin Nizamnaməsinə əsasən, mühüm iştirak payına sahib olan səhmdarlar səhmdarların reyestrində onlara dair daxil edilmiş məlumatların dəyişilməsi barədə emitentə on gün əzrində yazılı bildiriş verməlidirlər.

Unibank
Sənin Bankın

## 17. AİDİYYƏTİ ŞƏXSLƏRLƏ ƏMƏLİYYATLAR

**17.1. Son üç maliyyə ili ərzində emitentin aidiyyəti şəxslərlə bağlanmış müqavilələri barədə aşağıdakı məlumat Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq tərtib edilmiş məlumat;**

| | 31 dekabr 2019-cu il | | | |
|---|---|---|---|---|
| | **Baş rəhbərliyin üzvləri** | **Son nəzarətçi tərəf** | **Digər səhmdarlar** | **Digər əlaqəli tərəflər** |
| Müştərilərə verilmiş kreditlər və avansların ümumi məbləği | 139 876 | 95 838 | - | - |
| İlin sonuna müştərilərə verilmiş kreditlər və avansların dəyərsizləşməsi üzrə ehtiyat | -1 100 | -436 | - | - |
| Satılabilən investisiya qiymətli kağızı | - | - | - | 400 000 |
| cari/hesablaşma hesabları | 125 527 | 94 450 | - | 75 697 |
| Müddətli depozitlər | 322 372 | - | - | 1 000 000 |
| Subordinasiya borcları | - | - | 9 876 433 | - |
| İmtiyazlı səhmləri | - | - | - | - |
| Faiz gəliri | 19 942 | 17 631 | - | 262 |
| Faiz xərci | -3 413 | -100 | -362 452 | -276 053 |
| Kreditin dəyərsizləşməsi üzrə ehtiyat /(kreditin dəyərsizləşməsi üzrə ehtiyatın bərpası ) | 1 770 | 4 713 | - | - |
| Haqq və komissiya gəliri | 3 471 | 27 795 | 86 | 22 456 |
| Digər gəlirləri | - | 460 | - | 4 900 |
| İnzibati və digər əməliyyat xərcləri | 1 889 525 | 266 115 | - | -276 890 |
| İlin sonuna Qrup tərəfindən verilmiş zəmanətlər | - | - | - | 3 800 |

| | 31 dekabr 2020-ci il | | | |
|---|---|---|---|---|
| | Baş rəhbərliyin üzvləri | Son nəzarətçi tərəf | Digər səhmdarlar | Digər əlaqəli tərəflər |
| Müştərilərə verilmiş kreditlər və avansların ümumi məbləği | 122 752 | - | - | 175 404 |

Unibank
Sənin Bankın

| | | | | |
|---|---|---|---|---|
| İlin sonuna müştərilərə verilmiş kreditlər və avansların dəyərsizləşməsi üzrə ehtiyat | - | - | - | -1 054 |
| Satılabilən investisiya qiymətli kağızı | - | - | - | 400 000 |
| cari/hesablaşma hesabları | 158 797 | 258 938 | - | 837 413 |
| Müddətli depozitlər | 693 920 | - | - | - |
| Subordinasiya borcları | - | - | - | - |
| İmtiyazlı səhmləri | - | - | - | - |
| Faiz gəliri | 5 223 | 825 | - | 29 536 |
| Faiz xərci | -24 450 | -1 291 | -154 473 | -35 470 |
| Kreditin dəyərsizləşməsi üzrə ehtiyat /(kreditin dəyərsizləşməsi üzrə ehtiyatın bərpası ) | 1 064 | 436 | - | -1 054 |
| Haqq və komissiya gəliri | 1 302 | 10 986 | - | 23 895 |
| Digər gəlirləri | - | 8 990 | - | 13 393 |
| İnzibati və digər əməliyyat xərcləri | 2 609 506 | 2 079 168 | - | - |
| İlin sonuna Qrup tərəfindən verilmiş zəmanətlər | - | - | - | 168 908 |

| | **31 dekabr 2021-ci il** | | | |
|---|---|---|---|---|
| | Baş rəhbərliyin üzvləri | Son nəzarətçi tərəf | Digər səhmdarlar | Digər əlaqəli tərəflər |
| Müştərilərə verilmiş kreditlər və avansların ümumi məbləği | 225 124 | 21 585 | - | 208 473 |
| İlin sonuna müştərilərə verilmiş kreditlər və avansların dəyərsizləşməsi üzrə ehtiyat | -39 767 | -339 | - | -10 084 |
| Satılabilən investisiya qiymətli kağızı | - | - | - | 650 000 |
| cari/hesablaşma hesabları | 343 989 | 90 558 | - | 987 602 |
| Müddətli depozitlər | - | - | - | - |
| Subordinasiya borcları | - | - | - | - |
| İmtiyazlı səhmləri | - | - | - | - |
| Faiz gəliri | 10 270 | 71 | - | 31 020 |
| Faiz xərci | -49 594 | -1 397 | - | -7 623 |

| | | | | |
|---|---|---|---|---|
| Kreditin dəyərsizləşməsi üzrə ehtiyat /(kreditin dəyərsizləşməsi üzrə ehtiyatın bərpası ) | -39 731 | -339 | - | -10 084 |
| Haqq və komissiya gəliri | 4 384 | 21 462 | - | 40 988 |
| Digər gəlirləri | 597 | 213 | - | 49 723 |
| İnzibati və digər əməliyyat xərcləri | 2 078 642 | 1 798 000 | - | - |
| İlin sonuna Qrup tərəfindən verilmiş zəmanətlər | - | - | - | 316 200 |

**17.2. Məlumat MHBS uyğun olaraq tərtib edilmədiyi təqdirdə, həmin məlumat aşağıdakıları özündə əks etdirməlidir:**

17.2.1. müqavilənin mahiyyəti və ölçüsü;
17.2.2. aidiyyəti şəxslər öhdəliyi tam icra etmədiyi təqdirdə bu öhdəliyin hansı səbəbdən tam icra edilmədiyinin izahı;
17.2.3. emitentin ödənilməmiş borclarının məbləği;
17.2.4. aidiyyəti şəxslərlə olan əməliyyatların emitentin ümumi dövriyyəsində payı.
Məlumat MHBS-yə uyğun tərtib edilmişdir.

## 18. EMİTENTİN MALİYYƏ MƏLUMATLARI

**18.1. Emitentin başa çatmış son üç maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları;**
Hazırkı Emissiya Prospektinə əlavə kimi təqdim edilmişdir.

**18.2. Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları;**
Emitent 1992-ci ildən fəaliyyət göstərir.

**18.3. Emitent yeni yaradılmış hüquqi şəxs olduğu ilə əlaqədar maliyyə hesabatlarını tərtib edə bilmədiyi təqdirdə bu Qaydaların 3 saylı əlavəsinə uyğun olaraq maliyyə hesabatlarının əvəzinə proforma maliyyə hesabatını təqdim etməlidir.**
Emitent 1992-ci ildən fəaliyyət göstərir.

**18.4. Maliyyə hesabatları MHBS-yə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:**

18.4.1. maliyyə vəziyyəti haqqında hesabat;
18.4.2. mənfəət və zərər haqqında hesabat;
18.4.3. kapitalda dəyişiklik haqqında hesabat;
18.4.4. nağd pul vəsaitlərinin hərəkəti haqqında hesabat;
18.4.5. uçot siyasətləri və izahlı qeydlər.
Emitent maliyyə hesabatlarını MHBS-yə uyğun hazırlayır.

Unibank
Sənin Bankın

**18.5. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):**
**Link:**
**https://unibank.az/uploads/documents/1654058245UNIBANK%20IFRS%20FS%202021%20-%20signed.pdf**

**18.6. Aralıq və digər maliyyə məlumatları;**
Aralıq maliyyə məlumatları hazırkı Emissiya Prospektinin "I" hissəsinin 18.9-cu bəndində açıqlanır. Digər maliyyə məlumatları hazırkı Emissiya Prospektinin "Xülasə" hissəsinin 2.9-cu bəndində açıqlanır.

**18.7. Emitent son audit edilmiş maliyyə hesabatlarının təsdiq edilmə tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onları emissiya prospektinə daxil etməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə prospektə bu qeyd edilməlidir;**
**Link:** https://unibank.az/az/documents/quarterlyReports

**18.8. Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonrahazırlanarsa bu zaman aralıq audit edilmiş və ya edilməmiş ən azı yarımillik maliyyə hesabatı emissiya prospektinə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ili ilə eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir;**

**MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT**

*(min AZN)*

| Mənfəət və zərər maddələri | İyun 2022 | İyun 2021 |
|---|---|---|
| Faiz və gəlirlərin bu qəbildən olan növləri | 75 487 | 54 712 |
| Faizlər və onlara bağlı xərclər | (26 451) | (18 106) |
| **Xalis faiz gəliri (zərəri)** | **49 036** | **36 606** |
| Qeyri-faiz gəlirləri | 24 256 | 18 209 |
| Qeyri-faiz xərcləri | (64 285) | (42 836) |
| **Əməliyyat mənfəəti (zərəri)** | **9 007** | **11 979** |
| (Mümkün zərərlər üçün yaradılan məqsədli ehtiyatlar) | (8 217) | (8 063) |
| **Vergilər və bank fəaliyyəti ilə bağlı gözlənilməz xərclər ödənilənədək mənfəət (zərər)** | **790** | **3 915** |
| Gözlənilməz fəaliyyət növlərindən və əvvəlki dövr üçün uçotdakı dəyişikliklərdən mənfəət (zərər) | - | - |
| **Vergilər ödənilənədək mənfəət (zərər)** | **790** | **3 915** |
| Mənfəətdən vergilər | - | - |
| **Xalis mənfəət (zərər)** | **790** | **3 915** |

Unibank
Sənin Bankın

## BALANS HESABATI

(min AZN)

| Aktivlərin maddələri | 30.06.2022 | 30.06.2021 |
|---|---|---|
| Nağd vəsaitlər | 68 702 | 50 968 |
| ARMB-yə qarşı tələblər | 55 292 | 62 549 |
| "Nostro" hesablar | 15 387 | 8 036 |
| Banklar da daxil olmaqla maliyyə müəssisələrinə qarşı tələblər | 25 593 | 21 147 |
| Qiymətli kağızlara investisiyalar | 55 393 | 43 775 |
| Müştərilərə verilmiş kreditlər | 749 281 | 570 820 |
| Əsas vəsaitlər | 84 234 | 79 259 |
| İnvestisiyalar | 987 | 992 |
| Digər aktivlər | 88 169 | 55 388 |
| **Cəmi aktivlər** | **1 143 038** | **892 935** |
| **Öhdəliklərin maddələri** | | |
| "Loro" hesablar | 201 | 21 |
| Müştəri hesabları | 789 616 | 619 092 |
| Maliyyə institutlarından cəlb edilmiş vəsaitlər | 217 301 | 158 432 |
| Digər passivlər | 29 953 | 18 057 |
| **Cəmi öhdəliklər** | **1 037 071** | **795 602** |
| **Cəmi xalis aktivlər** | **105 967** | **97 333** |
| **Cəmi öhdəliklər və kapital** | **1 143 038** | **892 935** |

**18.9. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) emitentin səhmlərinin sayını göstərməklə, hər səhmə düşən və ödənilmiş dividendlər haqqında məlumat;**

| | 31.12.2019 | | |
|---|---|---|---|
| | Səhmlərin sayı | hər səhmə düşən dividend(manatla) | ödənilmiş dividendlər(manatla) |
| Adi səhmlər | 46 208 219 | 0 | 0 |

| | 31.12.2020 |
|---|---|

Unibank
Sənin Bankın

| | Səhmlərin sayı | hər səhmə düşən dividend(manatla) | ödənilmiş dividendlər(manatla) |
|---|---|---|---|
| Adi səhmlər | 46 208 219 | 0,14 | 6 353 630 |

| | 31.12.2021 | | |
|---|---|---|---|
| | Səhmlərin sayı | hər səhmə düşən dividend(manatla) | ödənilmiş dividendlər(manatla) |
| Adi səhmlər | 48 046 455 | 0,08 | 4 043 219 |

**18.10. Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla);**
Bu növ hüquqi proseslər olmamışdır.

**18.11. Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:**
Mövcud deyil.

## 19. EMİTENT HAQQINDA ƏLAVƏ MƏLUMATLAR

**19.1. Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin sayı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu;**

| Səhmdarlar | Nizamnamə kapitalında payı (%) |
|---|---|
| **Rezidentlər**<br>**Fiziki şəxslər:** | |
| Qəribov Eldar Mahmud oğlu | 86,6960% |
| Digər | 5,459% |
| **Qeyri-rezidentlər:**<br>**Fiziki şəxslər:** | |
| Digər | 0,5354% |
| **Hüquqi şəxslər:** | |
| Digər | 7,3096% |
| Cəmi: | 100% |

Unibank
Sənin Bankın

Emitentin nizamnamə kapitalının məbləği 130 686 357,60 (bir yüz otuz milyon altı yüz səksən altı min üç yüz əlli yeddi manat altmış qəpik) manat təşkil edir.Səhmlərin dəyəri milli valyutada manatla ödənilməlidir. Səhmdarların Yığıncağında ayrı qərar qəbul edilməzsə, Emitent sənədli səhmlər buraxmayacaq.

Səhmdarlar Emitent tərəfindən yeni səhmlər buraxılarkən onları almağa üstünlük hüququna malikdir. Əlavə Səhmlərin buraxılması və/və ya Səhmlərin keçməsi nəticəsində hər hansı Səhmdarın malik olduğu səsvermə hüququ verən Səhmlərin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilən həddə çatması və ya həmin həddin aşması Azərbaycan Respublikasının Mərkəzi Bankın razılığı əsasına həyata keçirilir.

Eyni növlü səhm üzrə verilən hüquqlar eynidir.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Emitentin adi səhmlərinin sahibləri olan səhmdarları nizamnamədə müəyyən edilmiş aşağıdakı hüquqlara malikdirlər:

- Emitentin idarə edilməsində qanunvericiliklə və Emitentin nizamnaməsi ilə müəyyən edilmiş qayadada iştirak etmək, onun idarə etmə və icra orqanlarına seçmək və seçilmək;
- qanunvericiliklə müəyyən edilmiş qaydada, Emitentin fəaliyyətinə dair məlumat almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;
- Emitentin səhmdarlarının ümumi yığıncağının çağırılmasını tələb etmək;
- Emitentin səhmdarlarının ümumi yığıncağının gündəliyində dəyişikliklərin edilməsini tələb etmək;
- Emitentin səhmdarlarının ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;
- Emitentin fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;
- Emitentin xalis mənfəətindən dividend almaq;
- Emitentin fəaliyyətinə xitam verildikdə, Emitentin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Emitentin yerdə qalan əmlakının müəyyən hissəsini almaq;
- qanunvericiliklə və Emitentin nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

Qanunvericilik və Nizamnamə ilə nəzərdə tutulmuş hallarda Emitentin səhmdarları digər hüquq və vəzifələrə malikdirlər.

**19.2. Emitentin emissiya hesabında olan səhmlərinin sayı və nominal dəyəri:**

Mövcud deyil.

**19.3. Emitentin törəmə müəssisələrinə məxsus emitentin səhmlərinin sayı və nominal dəyəri:**

Emitentin "Unicapital" İnvestisiya Şirkəti Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalında payı 100% təşkil edir. Səhmlərin sayı 100 00 (yüz min) ədəd, nominal dəyəri 3 (üç) manat təşkil edir.

Emitentin törəmə müəssisələrinin Emitentdə payı yoxdur.

**19.4. Əsas şərtlərini və məbləğini göstərməklə emitentin konvertasiya edilə bilən və təmin olunmuş qiymətli kağızları barədə məlumat:**

Mövcud deyil.

**19.5. Emitentin səhmlərinə olan opsionlar barədə məlumat:**

Emitentin səhmlərinə opsion tətbiq edilmir.

**19.6. Son üç il ərzində nizamnamə kapitalında baş verən dəyişikliklər barədə məlumat;**

12.12.2021-ci il tarixində hər birinin nominal dəyəri 2.72 manat olan 1 838 236 ədəd adi adlı sənədsiz səhmlərin buraxılışı nəticəsində emitentin nizamnamə kapitalı 130 686 357.60 manata artırılmışdır;

11.08.2022-ci il tarixində hər birinin nominal dəyəri 2.72 manat olan 4 375 000 ədəd adi adlı sənədsiz səhmlərin buraxılışı nəticəsində emitentin nizamnamə kapitalı 142 586 357.60 manata artırılmışdır;

**19.7. Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:**

**19.7.1. fəaliyyət və məqsədlərin təsviri:**

Emitent çoxsahəli kredit və maliyyə xidmətlərini göstərmək və Azərbaycan Respublikasının Bank sisteminin tərkib hissəsini təşkil etmək məqsədilə təsis edilmişdir. Yuxarıda qeyd edilənlərin həyata keçirilməsi üçün, Nizamnaməyə və Azərbaycan Respublikasının Qanunvericiliyinə (o cümlədən, maliyyə bazarlarına nəzarət orqanının müvafiq Emitent qaydalarına) uyğun olaraq Emitentin məqsədləri aşağıdakılardır:

1. Azərbaycan Respublikasının iqtisadiyyatının və ölkədə bank işininin inkişafına və ölkənin dünya iqtisadiyyatına inteqrasiyasına köməklik göstərmək;

2. Bank, maliyyə və sərmayə qoyuluşu sahəsində xidmətlər göstərmək;

3. sahibkarlıq fəaliyyətinin inkişafına yönəlmiş yerli və xarici sərmayələrin və kreditlərin cəlb edilməsini təmin etmək;

4. öz vəsaitlərini, hüquqi və ayrı-ayrı fiziki şəxslərdən cəlb olunmuş vəsaitləri Azərbaycan iqtisadiyyatının və Emitentin öz fəaliyyətinin inkişafına yönəltmək;

5. Azərbaycan Respublikasının Qanunvericiliyinə, Emitentin Səhmdarlarının və müştərilərinin maraqlarına zidd olmayan Bank lisenziyasında nəzərdə tutulmuş maliyyə, kredit və digər sahibkarlıq fəaliyyətini həyata keçirmək.

Azərbaycan Respublikasının Qanunvericiliyi və bank lisenziyası ilə müəyyən edilən hüdudlarda Emitent aşağıdakı Bank əməliyyatlarını həyata keçirmək hüququna malikdir:

1. tələbli və müddətli depozitlərin, digər qaytarılan vəsaitlərin cəlb edilməsi;

2. bütün növ təminatlı və təminatsız kreditlərin, o cümlədən istehlak və ipoteka kreditlərinin və digər kredit növlərinin verilməsi;

3. faktorinq, forfeytinq və lizinq xidmətlərinin göstərilməsi;

4. müştərilərin hesablarının açılması və aparılması;

5. digər Banklar üçün müxbir hesabların açılması və aparılması;

6. klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlərin göstərilməsi;

7. ödəniş vasitələrinin, o cümlədən debet və kredit kartların, yol çeklərinin, veksellərin və digər oxşar vasitələrin buraxılması;

8. öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin, o cümlədən çeklərin, köçürmə veksellərinin, borc öhdəliklərinin, öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi, qiymətli metalların və qiymətli daşların, valyuta və faiz vasitələrin alınması və satılması;

9. öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;

10. maliyyə müşavirinin, maliyyə agenti və ya məsləhətçisi, o cümlədən qiymətli kağızlar portfelinin idarə edilməsi üzrə məsləhətçi xidmətlərin göstərilməsi;

11. kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;

12. sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq);

13. qiymətli metalların əmanətə cəlb edilməsi və yerləşdirilməsi;

14. qiymətlilərin, o cümlədən qiymətli kağızların, banknotların və sikkələrin inkasasiya edilməsi və göndərilməsi;

15. Azərbaycan Respublikasının Qanunvericiliyinə, o cümlədən maliyyə bazarlarına nəzarət orqanının tətbiq olunan qərarlarına zidd olmayan hər hansı digər fəaliyyəti.

Emitent dövlət qiymətli kağızları almaq, satmaq, saxlamaq və onlarla əməliyyatlar həyata keçirmək hüququna malikdir.

Emitent tərəfindən hazırlanan illik və rüblük Maliyyə Hesabatları və digər maliyyə məlumatları Azərbaycan Respublikasının Qanunvericiliyinə və Beynəlxalq Mühasibat Standartlarına uyğun hazırlanmalıdır. Mühasibatın və bütün mühasibat sənədlərinin aparılması Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun olmalıdır.

Emitent Azərbaycan Respublikasının Qanunvericiliyinə əsasən lisenziya əsasında həyata keçirilən fəaliyyət növləri üçün xüsusi razılıq (lisenziya) almalıdır.

**19.7.2. İdarəetmə və nəzarət orqanlarının səlahiyyətləri barədə müddəaların icmalı.**

19.7.2.1. Səhmdarların Ümumi Yığıncağı Emitentin ali idarəetmə orqanıdır. Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aşağıdakılar daxildir:

19.7.2.1.1. Emitentin Nizamnaməsinin qəbul edilməsi, ona əlavə və dəyişikliklərin edilməsi;

19.7.2.1.2. Emitentin büdcəsini qəbul və təsdiq etmək;

19.7.2.1.3. Emitentin reqlamentinin qəbul edilməsi və reqlamentə əlavə və dəyişikliklərin edilməsi;

19.7.2.1.4. Emitent tərəfindən təsdiq edilən faiz dərəcələrinin və komission haqlarının, Emitentin aktivlərinin yerləşdirilməsi və kateqoriyaları barəsində siyasətinin habelə Emitentin ümumi maliyyə, uçot, inzibati və kadr siyasətinin təsdiq olunması;

19.7.2.1.5. Hər hansı hüquqi şəxslərdə səhmlərin və ya digər iştirak paylarının investisiya məqsədləri üçün alınmasının, Emitentin filial, şöbə və nümayəndəliklərinin yaradılması və ləğv edilməsinin, həmçinin onların əsasnamələrinin təsdiq edilməsi;

19.7.2.1.6. İdarə Heyətinin üzvlərinin təyin və azad edilməsi, bu qurumun Əsasnaməsinin təsdiq edilməsi;

19.7.2.1.7. İdarə Heyətinin üzvlərinin sırasından İdarə Heyətinin Sədrinin seçilməsi;

19.7.2.1.8. Emitentin Müşahidə Şurasının üzvlərinin və Sədrinin seçilməsi, onların səlahiyyətlərinə xitam verilməsi, Müşahidə Şurasının əsasnaməsinin təsdiq edilməsi. Müşahidə Şurasının üzvlərinin bütün hüquq və vəzifələri bu qurumun müvafiq əsasnaməsində öz əksini tapır;

19.7.2.1.9. Qanunvericiliyin tələbləri nəzərə alınmaqla Emitentin İnzibatçılarının işə götürülməsi müddətlərinin və şərtlərinin müəyyənləşdirməsi;

19.7.2.1.10. Müşahidə Şurası üzvlərinin səlahiyyətləri istisna olmaqla Emitentin İnzibatçılarının Emitent adından və Emitent hesabına öhdəliklər qəbul etmək səlahiyyətlərini və həmin səlahiyyətlərin Emitentin digər əməkdaşlarına verilməsi hüququnun hədlərini müəyyənləşdirilməsi;

19.7.2.1.11. Emitent İnzibatçılarının kommersiya maraqlarının açıqlaması haqqında qaydaları və həmin qaydalara dəyişiklik və əlavələrin təsdiq edilməsi;

19.7.2.1.12. Emitentin törəmə təsərrüfat cəmiyyətlərinin yaradılması və ləğv edilməsi, başqa Emitentin satın alınmasının təsdiq edilməsi;

19.7.2.1.13. Emitentin Nizamnamə Kapitalının artırılması və ya azaldılması, Emitent səhmlərinin buraxılması müddət və şərtlərinin müəyyən edilməsi;

19.7.2.1.14. Emitentdə Mühüm İştirak Payının (Azərbaycan Respublikasının Qanunvericiliyində müəyyən edildiyi qaydada) əldə edilməsinə razılıq verilməsi;

19.7.2.1.15. Emitentin kənar auditor tərəfindən təsdiqlənmiş və Audit Komitəsi tərəfindən tövsiyə edilmiş illik Maliyyə Hesabatlarının təsdiq edilməsi, habelə xalis mənfəət hesabına ehtiyatların yaradılması;

19.7.2.1.16. Dividendlərin ödənilməsi barədə qərarın qəbul edilməsi;

19.7.2.1.17. Emitentin satılması, yenidən təşkilinin və ya ləğv edilməsinin təsdiq edilməsi;

19.7.2.1.18. Səhmlərin beynəlxalq maliyyə bazarlarında yerləşdirilməsinin təsdiq edilməsi;

19.7.2.1.19. Emitentin fəaliyyətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi, strategiyasının və bank fəaliyyətinin inkişafının təsdiq edilməsi;

19.7.2.1.20. Ləğvetmə komissiyasının üzvlərinin təyin edilməsi;

19.7.2.1.21. Müşahidə Şurasının Sədrinin və üzvlərinin muzdunu Emitentin bölüşdürülməmiş mənfəətinin faizi şəklində və ya əmək haqqı formasında təyin edilməsi;

19.7.2.1.22. Qanunvericiliklə və Emitentin Nizamnaməsi ilə müəyyən edilmiş digər səlahiyyətlərin həyata keçirilməsi.

Yuxarıda qeyd olunan 19.7.2.1.2, 19.7.2.1.4-19.7.2.1.7-ci yarımbəndlərlə Səhmdarların Ümumi Yığıncağının müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlər həll edilmək üçün Emitentin Müşahidə Şurasına həvalə edilə bilər.

19.7.2.2. Müşahidə Şurası öz səlahiyyətləri hüdudlarında ümumi rəhbərliyi və Emitentin fəaliyyəti üzərində nəzarəti həyata keçirən orqandır. Müşahidə Şurasının müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

19.7.2.2.1. Emitentin təşkilati strukturunun təsdiq edilməsi;

19.7.2.2.2. Öhdəliklərin Təminatı Siyasətinin, Orta Müddətli Biznes Planının, Haqq və Xərclər Cədvəlinin təsdiq olunması və dəyişdirilməsi;

19.7.2.2.3. Emitentin Siyasəti barədə Bəyannamənin və onda göstərilən bütün sənədlərin, qaydaların, təlimatların və digər sənədlərin təsdiq edilməsi və dəyişdirilməsi;

19.7.2.2.4. İşçilərin əmək haqqlarının və mükafatların ödənilməsi sisteminin təsdiq olunması;

19.7.2.2.5. Emitentin idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən fəaliyyəti haqqında istənilən hesabatı və məlumatı nəzarət etdiyi idarəetmə orqanları və Bankın daxili komitələrindən, habelə struktur bölmələrdən alınması və baxılması;

19.7.2.2.6. Səhmdarların Ümumi Yığıncağına tövsiyyələrin, o cümlədən Emitentin fəaliyyətinin strateqiyası və inkişafı barədə tövsiyyələrin verilməsi;

19.7.2.2.7. Emitentin İdarə Heyətinə qanunvericiliyi pozan qərarların qəbul edilməsinin qarşısının alınması və yaxud onların dayandırılmasına dair göstərişlərin verilməsi;

19.7.2.2.8. Səhmdarların Ümumi Yığıncaqlarının bildirişlərin göndərilməsi yolu ilə çağırılması, habelə buraxılmış və geri alınmamış Səhmlərinin 5 (beş) % faizinə sahib olan Səhmdar və ya Səhmdarlar qrupu, Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə, onların gündəliyi üzrə keçirilən növbədənkənar yığıncaqlar istisna olmaqla, Səhmdarların Ümumi Yığıncağının gündəliyinin qəbul edilməsi;

19.7.2.2.9. Emitent tərəfindən qüvvədə olan Azərbaycan Respublikasının Qanunvericiliyinin pozulması faktını müəyyən etdikdə bu pozuntu barəsində Səhmdarların Ümumi

Yığıncağının, Audit Komitəsinin və İdarə Heyətinin xəbərdar edilməsi və Azərbaycan Respublikasının maliyyə bazarlarına nəzarət orqanına bank Qanunvericiliyinin pozulması faktları barədə bildirişin göndərilməsi;

19.7.2.2.10. Emitentin İnzibatçılarına qarşı hər hansı məhkəmə işinin başlanmasının təsdiq olunması, İdarə Heyətinin üzvlərinin vəzifədən kənarlaşdırılması, Səhmdarların Ümumi Yığıncağında təsdiq edilənədək İdarə Heyətinin üzvlərinin müvəqqəti olaraq digər şəxslərlə əvəz edilməsi;

19.7.2.2.11. Emitent ilə İdarə Heyətinin bir və ya bir neçə üzvü arasında mənafelər toqquşması olduğu hallarda Emitentin idarə və təmsil edilməsi;

19.7.2.2.12. Emitentin etibarlı və prudensial idarə olunmasının təmin edilməsi məqsədi ilə yuxarıda qeyd olunan 19.7.2.2.2 və 19.7.2.2.3-cüyarımbəndlərdə göstərilən sənədlərə əlavə olaraq digər zəruri qayda və daxili əsasnamələrin təsdiq edilməsi;

19.7.2.2.13. Emitentin kapital ehtiyatlarının yaradılması haqqında qərar qəbul edilməsi;

19.7.2.2.14. "Banklar haqqında" Qanunun 24.3-cü və 25.1.10-cu maddələrinin tələbləri nəzərə alınmaqla, Emitentin nizamnamə kapitalının 50 faizindən artıq məbləğdə və bankın nizamnaməsində nəzərdə tutulmuş hallarda bank adından müvafiq əqdlərin bağlanmasına icazə verilməsi;

19.7.2.2.15. səhmdarların ümumi yığıncağının səlahiyyətinə aid olan hallar istisna olmaqla, aidiyyəti şəxslərlə dəyəri Emitentin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi ;

19.7.2.2.16. Emitentin fəaliyyətinin kompleks və ayrı-ayrı sahələrinin yoxlanması haqqında qərarların qəbul edilməsi;

19.7.2.2.17. Kənar və daxili auditorların, habelə yoxlayıcı orqanlarınyoxlamalarının nəticələrinin nəzərdən keçirilməsi və belə yoxlamaların yekunlarına dair tədbirlərin görülməsi;

19.7.2.2.18. Hər hansı dividendlərin ödənilməsi ilə bağlı Səhmdarların Ümumi Yığıncağına ediləcək tövsiyyələrin təsdiq olunması;

19.7.2.2.19. Emitentin bazarda olan faiz dərəcələrindən aşağı faiz dərəcəsinin tətbiq edilməsini təklif etdiyi hər hansı əqdin təsdiq olunması və dəyişdirilməsi;

19.7.2.2.20. Korporativ istiqrazların və digər növ qiymətli kağızların, səhmlər istisna olunmaqla, buraxılmasının təsdiq olunması;

19.7.2.2.21. Azərbaycan Respublikasının qanunvericiliyi, maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktları, Emitentin Nizamnaməsi və Müşahidə Şurası haqqında Əsasnamə ilə nəzərdə tutulmuş digər səlahiyyətlərin həyata keçirilməsi;

19.7.2.2.22. Səhmdarların Ümumi Yığıncağına 19.7.2.1.1, 19.7.2.1.14, 19.7.2.1.15, 19.7.2.1.18-cü bəndlərdə nəzərdə tutulan məsələlər üzrə tövsiyyələrin verilməsi;

19.7.2.2.23. Bankın Audit Komitəsinin üzvlərinin və Sədrinin seçilməsi və onların səlahiyyətlərinə xitam verilməsi, Audit Komitəsinin əsasnaməsinin təsdiq edilməsi. Audit Komitəsinin üzvlərinin bütün hüquq və vəzifələri bu qurumun müvafiq əsasnaməsində öz əksini tapır.

19.7.2.2.24. Audit Komitəsinin sədri və üzvlərinə hər hansı əmək haqqının ödənilməsinin təsdiq edilməsi.

19.7.2.2.25. Növbəti və tələb olunduğu hallarda növbədənkənar auditin keçirilməsi barədə qərar qəbul etmək və bu məqsədlə kənar auditoru təyin etmək.

19.7.2.2.26. Yuxarıda qeyd olunmuş 19.7.2.2.22.-ci bənddə nəzərdə tutulan məsələlər ilə bağlı qərarlar Müşahidə Şurasının bütün üzvlərinin müsbət səs verdiyi halda qəbul olunur.

19.7.2.3. İdarə Heyəti Emitentin məsul icra orqanıdır. İdarə Heyəti Səhmdarların Ümumi Yığıncağının, Müşahidə Şurasının qərarlarına və Emitentin Nizamnaməsinin müddəalarına əsasən Emitentin fəaliyyətinə gündəlik rəhbərliyi həyata keçirir. İdarə Heyətinin müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

19.7.2.3.1. Emitentin təşkilati strukturuna dair Müşahidə Şurasına tövsiyyələrin verilməsi;

19.7.2.3.2. Emitentin əsasnamələrinin, təlimatlarının və digər daxili qaydalarının müvafiq Qanunvericiliyə uyğun tərtib olunması məqsədi ilə Müşahidə Şurasına tövsiyyələrin verilməsi;

19.7.2.3.3. Emitentin struktur vahidlərinin hesabatlarının hazırlanmasında iştirak etməsi;

19.7.2.3.4. Öz səlahiyyətləri çərçivəsində Səhmdarların Ümumi Yığıncağı və Müşahidə Şurası tərəfindən baxılacaq məlumat və tövsiyyələrin hazırlanması;

19.7.2.3.5. Bankəməliyyatlarının aparılması, Banklararası müqavilələrin bağlanmasına dair məsələlərə baxılması və mühasibat, hesabat və daxili məsələlər üzərində nəzarətin həyata keçirilməsi;

19.7.2.3.6. Kadrların seçilməsi, onların ixtisasının artırılması, əmək muqavilələrinin və işçilərin əmək haqqlarının tənzimlənməsi ilə bağlı məsələlərə baxılması;

19.7.2.3.7. Emitent tərəfindən tətbiq edilən faiz dərəcələri və komission haqqları ilə bağlı Müşahidə Şurasına tövsiyyələrin verilməsi;

19.7.2.3.8. Səhmdarların Ümumi Yığıncağının və Müşahidə Şurasının müstəsna səlahiyyətlərinə aid olmayan hər hansı digər məsələlərin həll edilməsi.

19.7.2.3.9.İdarə Heyətinin sədri:

19.7.2.3.9.1. İdarə Heyətinin gündəlik işini təşkil edir və onun iclaslarına sədrlik edir;

19.7.2.3.9.2. İdarə Heyətinin, Müşahidə Şurasının və Səhmdarların Ümumi Yığıncağının qərarlarının icrasını təmin edir;

19.7.2.3.9.3. Üçüncü tərəflər ilə münasibətlərdə etibarnamə olmadan Emitenti təmsil edir və vaxtaşırı olaraq bu səlahiyyəti İdarə Heyətinin digər üzvlərinə həvalə edə bilər;

19.7.2.3.9.4. Emitentin büdcəsinin icrasına nəzarət edir, müqavilələr və etibarnamələri imzalayır, və Emitentin Nizamnaməsi ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində Emitentin adından qarantiya verir;

19.7.2.3.9.5. Emitentin işçilərini işə qəbul edir və Emitent işçilərinin əmək haqqları ilə bağlı qərarları icra edir.

19.7.2.4. Audit Komitəsi aşağıdakı səlahiyyətlərə malikdir:

19.7.2.4.1. Emitentin audit siyasətini və strategiyasını müəyyən etmək;

19.7.2.4.2. Daxili audit planlarını təsdiq etmək və audit bölməsinin fəaliyyətinə nəzarəti həyata keçirmək;

19.7.2.4.3. Kənar auditin təyin edilməsi ilə əlaqədar Emitentin səlahiyyətli idarəetmə orqanlarına təkliflər vermək;

19.7.2.4.4. Kənar auditlə birgə işi təşkil etmək, auditin nəticə və tövsiyyələrinin həyata keçirilməsinə yardım etmək;

19.7.2.4.5. Emitentin idarəetmə orqanları ilə kənar auditorlar, habelə nəzarət orqanları arasında əlaqələr qurmaq;

19.7.2.4.6. Daxili nəzarət sistemlərinin təkmilləşdirilməsinə dair Səhmdarların Ümumi Yığıncağına və Müşahidə Şurasına təkliflər vermək;

19.7.2.4.7. Emitent tərəfindən Azərbaycan Respublikasının maliyyə bazarlarına nəzarət orqanının müəyyən etdiyi qaydalara və Emitentin Nizamnaməsinə əməl olunmasına nəzarət etmək;

19.7.2.4.8. Emitentdə mühasibatlığın aparılmasına nəzarəti həyata keçirmək.

19.7.2.4.9. Azərbaycan Respublikasının Qanunvericiliyində nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.

**19.7.3. mövcud səhmlərin hər bir növü məhdudiyyətlərin təsviri** – Emitentin mövcud səhmlərinin yalnız bir növü (adi sənədsiz adlı səhmlər) olduğundan həmin növ səhmlər üzrə məhdudiyyətlər mövcud deyildir.

**19.7.4. səhmdarların illik və növbədənkənar ümumi yığıncaqlarına çağırılma qaydası.**

Səhmdarların illik Ümumi Yığıncağı Emitentin hər il üçün maliyyə hesabatları tərtib edildikdən və kənar auditor yoxlamasından keçdikdən sonra ən geci iki ay ərzində keçirilir. Müşahidə Şurasının və İdarə Heyətinin illik hesabatları Səhmdarların illik Ümumi Yığıncağına təqdim olunmalıdır.

Səhmdarların illik Ümumi Yığıncağından əlavə olan hər hansı Səhmdarların Ümumi Yığıncağı Səhmdarların növbədənkənar Ümumi Yığıncağı adlanır.

Səhmdarların illik Ümumi Yığıncaqlarının çağırılması Müşahidə Şurası tərəfindən təşkil edilir. Səhmdarların bütün Ümumi Yığıncaqları Azərbaycan Respublikasının Bakı şəhərində keçirilməlidir.

Səhmdarların növbədənkənar Ümumi Yığıncağı səsvermə hüququ olan Səhmlərin azı 5 (beş) % faizinin sahibləri olan Səhmdarların, Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə çağıra bilər.

Səhmdarların hər bir növbəti Ümumi Yığıncağının keçirilməsi haqqında yazılı bildiriş Səhmdarların Ümumi Yığıncağının keçirilməsinə ən azı 45 (qırx beş) təqvim günü qalmış hər yığıncaqda iştirak etmək və səs vermək hüququna malik olan bütün Səhmdarlara göndərilir, həmçinin Səhmdarların Ümumi Yığıncağı barədə məlumat kütləvi informasiya vasitələrində dərc edilir. Belə bildiriş vaxtaşırı olaraq müvafiq Səhmdar tərəfindən Emitentə bildirilən ünvana faksla, elektron poçt vasitəsi ilə (elektron sənəd şəklində) və ya şəxsən göndərilməlidir. Bildiriş göndərildiyi gündən sonra gələn növbəti iş günündə (faksla göndərilən hallarda) və ya çatdırılma gününə (şəxsən çatdrılan hallarda) çatdırılmış sayılır. Hər bir bildirişdə yığıncağın yeri, günü, vaxtı, yığıncağın gündəliyi və gündəlik üzrə materiallarla tanış olma qaydası göstərilməlidir. Səhmdarların yığıncağda səsvermə hüququna malik olan bütün Səhmdarlar təmsil olunmuşdursa, yığıncağ onun çağırılması vaxtından və üsulundan asılı olmayaraq səlahiyyətli sayılır. Səsvermə hüququna malik olan Səhmdarların hamısı yekdilliklə razılıq verərsə, bu yığıncaq gündəliyə daxil edilməmiş məsələləri də müzakirə edə və onlara dair qərarlar qəbul edə bilər.

Səhmdarların növbədənkənar Ümumi Yığıncağının çağırılması haqqında tələbin (təşəbbüsün) daxil olduğu gündən etibarən icra orqanı aşağıdakıları yerinə yetirməlidir:

1. üç iş günü müddətində Səhmdarların ümumi yığıncağının vaxtını və yerini təyin edib, bu barədə kütləvi informasiya vasitələrində elan vermək;

2. beş iş günü müddətində Səhmdarların Ümumi Yığıncağının çağırılması barədə bildirişləri Səhmdarlara göndərmək;

3. otuz gündən tez, qırx beş gündən gec olmayaraq Səhmdarların Ümumi Yığıncağının keçirilməsini təmin etmək.

**19.8. Son 2 il ərzində emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:**

Mövcud deyil

# II HİSSƏ

## SƏHMLƏR BARƏDƏ MƏLUMAT

### 1. ƏSAS MƏLUMAT

**1.1. Emitentin dövriyyə kapitalı (carı aktivlərdən cari öhdəlikləri çıxmaqla) barədə hesabat:**

Dövriyyə kapitalı 31.10.2022 tarixinə - 259 513 540 manat təşkil edir.

**1.2. Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etdiyi və ya lazım olan əlavə vəsaitlər və onların mənbələri barədə məlumat:**

Əvvəlki illərin təcrübəsinə və statistikaya əsasən müştərilərin cari hesablarının azalması nəzərdə tutulmur .

**1.3. Emissiya prospektinin tərtib edilməsi tarixinə qədər son üç ay ərzində emitentin kapitallaşma və borcları (zəmanətli və zəmanətsiz, təminatlı və təminatsız, dolayı və şərti borcluluq) barədə hesabat:**

| | 31.10.2022 | 30.09.2022 | 31.08.2022 |
|---|---|---|---|
| AR Mərkəzi Bankı (təminatsız) | 26 044 104 | 26 044 104 | 26 044 104 |
| Rezident maliyyə institutları | 222 862 584 | 214 993 051 | 183 180 288 |
| Digər | 17 820 849 | 17 836 206 | 17 956 206 |
| **Cəmi** | **266 727 537** | **258 873 361** | **227 180 598** |

**1.4. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

**"Bakı Fond Birjası" QSC.** "Bakı Fond Birjası" QSC səhm və digər növ qiymətli kağızlarla ilkin və təkrar bazarda mütəşəkkil ticarəti təşkil edir. "Unibank Kommersiya Bankı" ASC-nin tədavüldə olan səhmləri "Bakı Fond Birjası" QSC-nin qeyri-listinq bazar seqmentində ticarət olunur. Bu emissiya prospekti təsdiq olunduqdan sonra yeni buraxılacaq səhmlər tədavüldə olan səhmlərlə eyni dövlət qeydiyyat nömrəsi altında "Bakı Fond Birjası" QSCnin listinqinə daxil ediləcəkdir. "Bakı Fond Birjası" QSC "Unibank Kommersiya Bankı" ASC-nin və digər emitentlərin emissiya etdiyi qiymətli kağızların onun ticarət platformasında ticarət buraxılmasında marağı kommersiya xarakterlidir. "Bakı Fond Birjası" QSC qiymətli kağızların yerləşdirilməsi və tədavülündən, habelə qiymətli kağızları öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi.** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Azərbaycan Respublikasında qiymətli kağızların saxlanılması, qiymətli kağızların reyestrinin aparılması, qiymətli kağızlar üzrə ödəniş agenti və digər aidiyyəti xidmətləri göstərir. "Unibank Kommersiya Bankı" ASC-nin tədavüldə olan səhmləri MDM-də saxlanılır, bu səhmlərin mülkiyyətçilərinin (səhmdarların) reyestri və mülkiyyət hüquqlarının uçotu da MDM tərəfindən aparılır. "Unibank Kommersiya Bankı" ASC-nin yeni buraxılacaq səhmləri üzrə müvafiq xidmətlər MDM tərəfindən həyata keçiriləcəkdir. Bu xidmətlərin göstərilməsinə görə MDM öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**"Unicapital İnvestisiya Şirkəti" ASC.** "Unicapital İnvestisiya Şirkəti" ASC lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. Bu lisenziya əsasında "Unicapital İnvestisiya Şirkəti" ASC emitent və investorlara investisiya bir sıra əsas və yardımçı investisiya xidmətləri göstərir. "Unibank Kommersiya Bankı" ASC-nin yeni buraxılacaq səhmlərinin anderraytinqi və yerləşdirilməsi "Unicapital İnvestisiya Şirkəti" ASC tərəfindən həyata keçiriləcəkdir və bu xidmətin göstərilməsinə görə "Unibank Kommersiya Bankı" ASC-dən xidmət haqqı tutacaqdır. "Unibank Kommersiya Bankı" ASC-nin səhmlərinin anderraytinqi və yerləşdirilməsi prosesində "Unicapital İnvestisiya Şirkəti" ASC-nin marağı kommersiya xarakterlidir.

Bu emissiyada iştirak edən MDM, BFB, emitentin İdarə Heyətinin sədrinin birinci müavini / İcraçı direktor Fərid Abuşov, emitentin İdarə Heyətinin üzvü / Baş Maliyyə İnzibatçısı Faiq Zeynalov, kənar auditorların və anderrayterin maraqlarının toqquşması ilə bağlı hal mövcud deyildir.

**1.5. Səhmlərin təklifinin səbəbləri və səhmlərin yerləşdirilməsindən və ya satılmasından əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:**

İnvestisoya qiymətli kağızların bir növü olaraq hər birinin nominal dəyəri 2.72 (iki manat yetmiş iki qəpik) manat olan 2 500 000 (iki milyon beş yüz min) ədəd adi adlı sənədsiz əlavə səhmlərin təklifi onların yerləşdirilməsi yolu ilə investorlardan sərbəst vəsaitlərin Emitentin Nizamnamə kapitalına cəlb edilməsi məqsədilə həyata keçirilir. Emitentin fəaliyyəti nəticəsində əldə edilmiş gəlirlər Emitentin kapitallaşmasına yönəldiləcək və pul vəsaitlərinin resurs bazasının fərqləndirilməsinə imkan yaradacq.

**1.6. Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələri maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə lazım olan digər pul vəsaitlərinin məbləği və mənbələri:**

Mövcud deyil.

**1.7. Əldə olunan vəsaitlərin digər müəssisələrin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:**

Nəzərdə tutulmayıb.

Unibank
Sənin Bankın

## 2. TƏKLİF EDİLƏN SƏHMLƏR HAQQINDA MƏLUMAT

**2.1. Qiymətli kağızların emissiyasını tənzimləyən Azərbaycan Respublikasının qanunları:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27.01.2016-cı il tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar və Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27.01.2016-cı il tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında" Qaydalar.

**2.2. Səhmlərin növü:** adi adlı sənədsiz səs hüquq verən səhm, AZ1003002024

**2.3. Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan səhmlər barədə məlumat ayrı ayrılıqda göstərilməklə):**

| | Səhmlərin sayı | Nominal dəyəri |
|---|---|---|
| Yeni buraxılan | 2 500 000 (iki milyon beş yüz min) ədəd | 2.72 (iki manat yetmiş iki qəpik) manat |
| Mövcud olan | 52 421 455 (əlli iki milyon dörd yüz iyirmi bir min dörd yüz əlli beş) ədəd | 2.72 (iki manat yetmiş iki qəpik) manat |

**2.4. Səhmlərlə təsbit olunan hüquqlar:**

- bankın idarə edilməsində qanunvericiliklə və bankın nizamnaməsi ilə müəyyən edilmi qayadada iştirak etmək, onun idarə etmə və icra orqanlarına seçmək və seçilmək;
- qanunvericiliklə müəyyən edilmiş qaydada, bankın fəaliyyətinə dair məlumat almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;
- bankın səhmdarlarının ümumi yığıncağının çağırılmasını tələb etmək;
- bankın səhmdarlarının ümumi yığıncağının gündəliyində dəyişikliklərin edilməsini tələb etmək;
- bankın səhmdarlarının ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;
- bankın fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;
- bankın xalis mənfəətindən dividend almaq;
- Bank fəaliyyətinə xitam verildikdə, Bankın kreditorlarının tələbləri yerinə yetirildikdən,hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Bankın yerdə qalan əmlakının müəyyən hissəsini almaq;

- qanunvericiliklə və bankın nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

**2.5. Səhmlərlə təsbit olunan məhdudiyyətlər:**
Mövcud deyil.

**2.6. Səhmlərin saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer:**
Milli Depozit Mərkəzi Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.
Ünvan: Həsən bəy Zərdabi prospekti 2A, Bakı, AZ1141, Şokolad Tower
Telefon: +994(12) 538 3190
E-mail: info@mdm.gov.az

**2.7. Dividend siyasəti:**
Emitentin mənfəətinin bölüşdürülməsi nəticəsində dividendlərin ödənilməsi həyata keçirilir. Dividend ödənilməsi Emitentin Səhmdarlarının Ümumi Yığıncağının Qərarına əsasən və Azərbaycan Respublikası Mərkəzi Bankının icazəsi ilə ödənilir.

**2.8. Üstünlük hüququ tətbiq edildiyi halda, həmin hüququn həyata keçirilməsi qaydası və müddəti, yaxud üstünlük hüququnun tətbiq edilmədiyi barədə qeyd:**
Bankın səhmdarları səhmlərin əldə edilməsində Nizamnamə kapitalında malik olduqları paya mütənasib şəkildə almaqda üstünlük hüququna malikdirlər və öz üstünlük hüquqlarından, səhmlər Bakı Fond Birjasında yerləşdirilməsinə başlandığı tarixindən ilk 2 iş günü ərzində istifadə edə biləcəklər.

**2.9. Səhmlərin geri satın alınma şərtləri (olduqda):**
Nəzərdə tutulmayıb

**2.10. Səhmlərin konvertasiyası şərtləri (olduqda):**
**Yoxdur.**

**2.11. Səhmlərin emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:**
Səhmdarların ümumi yığıncağının 29.04.2022-ci il tarixli, 2 saylı Protokolu.

**2.12. Səhmlərin əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):**
**Yoxdur.**

**2.13. Keçən və cari maliyyə ili ərzində emitentin səhmlərinin alınmasına dair məcburi təkliflərin mövcudluğu. Bu təkliflər və onların nəticələri ilə bağlı qiymət və ya konvertasiya şərtləri barədə məlumat:**
Məcburi təklif mövcud olmamışdır.

**2.14. Dividendlərdən mənbədə verginin tutulması barədə məlumat. Dividendlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:**
Qanunvericiliklə nəzərdə tutulan halda Emitent dividentlər üzrə faiz ödənişi zamanı qanunvericiliklə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.1.22-ci maddəsinə əsasən, 2016-cı il fevralın 1-dən etibarən 7 (yeddi) il müddətində yerli bank və xarici bankın

Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır.
Həmin Məcəllənin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır.
Azərbaycan Respublikası Mülki Məcəllənin 997.2-ci maddəsinə əsasən, istiqrazlar və səhmlər investisiya qiymətli kağızlarıdır. Həmin Məcəllənin 1077.1-ci maddəsinə əsasən, səhm mülkiyyətçisinin həmin səhmin nominal dəyərinə mütənasib surətdə səhmi buraxmış səhmdar cəmiyyətinin nizamnamə kapitalında iştirakını, mənfəətindən dividendlər, ləğvindən sonra isə qalan əmlakının hissəsini almaq hüququnu, həmçinin səhmdar cəmiyyətinin idarə olunmasında iştirak etmək hüququnu təsdiqləyən investisiya qiymətli kağızıdır.
Anderrayter xidmətləri üçün tutulacaq komissiya 0.5 % təşkil edir. Komissiya hər əqdin məbləğindən emitent tərəfindən ödənilir.

## 3. TƏKLİFİN ŞƏRTLƏRİ

**3.1. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:**

Səhmlərin abunə yazılışına səhmlərin emissiyasının dövlət qeydiyyatına alındığı gün başlanılır. Abunə yazılışının müddəti abunə yazılışının başladığı tarixdən etibarən 15 iş günü müəyyən edilir. Abunə yazılışı başa çatdıqdan sonra 5 (beş) iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlama tarixi elan edilir və abunə yazılmış şəxslərə bu barədə bildiriş göndərilir. İlk növbədə, Emitentin almaqda üstünlük hüququna malik səhmdarları tərəfindən təqdim edilən sifarişlər təmin olunur. Emitentin səhmdarları öz üstünlük hüquqlarından səhmlərin Bakı Fond Birjasında yerləşdirilməsinə başlandığı tarixindən ilk 2 (iki) iş günü ərzində istifadə edə biləcəklər.Səhmlərin yerləşdirilməsi 30 dekabr 2022-ci il tarixindən gec olmamaqla 7 iş günü müddətində başa çatdırılacaq. Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulla ilə Bakı Fond Birjası vasitəsilə nominal qiymətlə həyata keçiriləcəkdir.

**3.2. Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:**

Emissiya prospektinə dəyişikliklərin Dövlət qeydiyyatına alınması üçün ərizə (həmin dəyişikliklərin qəbul edilməsi barədə qərar, dəyişikliklərin mətni və əsaslandırma əlavə edilməklə) müvafiq qərarın qəbul edildiyi gündən beş iş günü ərzində maliyyə bazarlarına nəzarət orqanına təqdim ediləcək. Emissiya prospektində edilmiş

dəyişikliklər Dövlət qeydiyyatına alındığı tarixdən beş iş günü ərzində Məlumatların Elektron Açıqlanması Sistemində (MEAS) https://www.cbar.az/meas, Bakı Fond Birjasının rəsmi internet səhifəsində https://www.bfb.az/az və emitentin internet səhifəsində https://unibank.az/ açıqlanır və açıqlandığı tarixdən on beş iş günü bitdikdən sonra qüvvəyə minir.

**3.3. Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:**

Emitent tərəfindən təxirə salınması və ya dayandırılması yalnız Səhmdarların Ümumi Yığıncağının qərarı ilə mümkündür.

**3.4. Təklifin nəzərdə tutulan müddətdən tez başa çatdırılmasının şərtləri:**

Buraxılış üzrə elan olunmuş ümumi 6 800 000 manat məbləğində 2 500 000 ədəd səhmin yerləşdirilməsi başa çatdıqda.

**3.5. Səhmlərə abunə yazılışının qaydası:**

Abunə yazılışı internetdə sayt vasitəsilə elektron və ya yazılı şəkildə bildirişlərin təqdim edilməsi yolu ilə keçiriləcəkdir.

**3.6. Abunə yazılışının minimum və maksimum məbləği:**

Buraxılış üzrə elan olunmuş ümumi 6 800 000 manat məbləğində 2 500 000 ədəd səhmin yerləşdirilməsi başa çatdıqda emissiya baş tutmuş hesab edilir.

**3.7. Abunə yazılışı zamanı sifarişlərin geri çağırılması və abunəçilər tərəfindən ödənilmiş artıq məbləğin geri qaytarılması qaydası:**

Abunəçi tərəfindən ümumi dəyəri 6 800 000 manat, hər birinin nominal dəyəri 2.72 (iki manat yetmiş iki qəpik) manat olan 2 500 000 (iki milyon beş yüz min) ədəd adi adlı sənədsiz əlavə səhmlərin geri çağırılması abunə yazılışının bitmə tarixinə qədər mümkündür. Abunə müddətində elan olunmuş 6 800 000 manat məbləğindən artıq məbləğin ödənilməsi nəzərdə tutulmur.

Ödəniş 5 iş günü ərzində nəzərdə tutulduğu üçün artıq məbləğin qaytarılması nəzərdə tutulmur.

**3.8. Abunə yazılışı zamanı sifarişlərin məbləği təklifin məbləğindən çox olduqda səhmlərin yerləşdirilməsi qaydası:**

Elan olunmuş 6 800 000 manat məbləği yığıldıqdan sonra abunə yazılışı dayandırılır.

**3.9. Bir şəxs tərəfindən, abunə yazılışı zamanı, verilən bir neçə sifarişlərin qəbul edilib- edilmədiyinin şərtləri:**

Sifarişlər elan olunmuş məbləğ həddində qəbul edilir və səhmlərin nominal dəyəri ilə yerləşdirilir.

Emitentin mövcud səhmdarları səhmlərə mütasib qaydada üstünlük hüququndan istifadə etdikdən sonra növbəlilik qaydasında sifarişlərə baxılır.

**3.10. Səhmlərin dəyərinin ödənilməsi və investorların səhmlərlə təchizatı qaydası:**

Hazırkı Emissiya Prospektinin "Xülasə" hissəsinin 5.9-cu bəndində açıqlanır.

**3.11. Üstünlük hüququnun istifadəsi qaydası və həmin hüquqdan istifadə olunmadıqda bunun nəticələri barədə məlumat:**

Unibank
Sənin Bankın

Bankın səhmdarları səhmlərin əldə edilməsində Nizamnamə kapitalında malik olduqları paya mütənasib şəkildə almaqda üstünlük hüququna malikdirlər və öz üstünlük hüquqlarından, səhmlər Bakı Fond Birjasında yerləşdirilməsinə başlandığı tarixindən ilk 2 (iki) iş günü ərzində istifadə edə biləcəklər.

**3.12. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:**

Səhmlər kütləvi təklif üsulu ilə yerləşdirildiyi üçün bu barədə məlumat mövcüd deyil.

**3.13. Səhmlərin satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:**

Abunə yazılışının müddəti abunə başlandığı tarixdən etibarən 15 iş günü müəyyən edilir. Bu müddət bitdiyi andan etibarən emitent tərəfindən investorlara səhmlərin satışının başlanması haqqında yazılı bildiriş göndərilir.

**3.14. Emitentin məlumatları əsasında yerləşdirilən səhmlərin mühüm iştirak payına sahib olan səhmdarlar və ya emitentin idarəetmə və nəzarət orqanların üzvləri tərəfindən və ya təklifin 5%-dən çoxunu almaq niyyəti olan şəxslər barədə məlumat:**

Səhmlər kütləvi təklif üsulu ilə yerləşdirildiyi üçün bu barədə məlumat mövcüd deyil. Lakin bu bənddə nəzərdə tutulan şəxslərin emissiyada iştirakı istisna olunmur.

**3.15. İnstutisional və pərakəndə investorlar və emitentin işçiləri üçün təklifin hissələrə bölünməsi barədə məlumat:**

Səhmlər kütləvi təklif üsulu ilə yerləşdirildiyi üçün bu barədə məlumat mövcüd deyil. Lakin bu bənddə nəzərdə tutulan şəxslərin emissiyada iştirakı istisna olunmur.

**3.16. Yerləşdirmə zamanı bəzi investor qruplarına əvvəlcədən müəyyən olunmuş səhmlərin imtiyazlı alışının təsviri, bu cür imtiyazlı alış üçün ayrılmış səhmlərin faiz nisbəti və belə investor qruplarına daxil olma meyarları:**

İlk növbədə əlavə buraxılan səhmləri almaqda üstünlük hüququ olan emitentin səhmdarlarının təqdim etdikləri sifarişlər təmin olunur.

Bu sifarişlər səhmlərin yerləşdirilməsinə başlandığı tarixdən ilk iki iş günü ərzində icra edilir.

**3.17. Səhmlərin təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə səhmlərin qiymətinin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxs(lər) barədə məlumat:**

Yerləşdirmənin başlanma tarixində səhmlərin satış qiyməti səhmlərin nominal dəyərinin 100 faizini, yəni bir ədəd səhmin satış qiyməti 2.72 (iki manat yetmiş iki qəpik) manat təşkil edir.

**3.18. Satış qiymətinin açıqlanma qaydası:**

Yerləşdirmənin başlanma tarixində səhmlərin satış qiyməti səhmlərin nominal dəyərinin 100 faizini, yəni bir ədəd səhmin satış qiyməti 2.72 (iki manat yetmiş iki qəpik) manat təşkil edir. Səhmlərin dəyəri nağdsız qaydada, milli valyutada manatla ödənilir.

**3.19. Səhm alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

Qanunvericiliklə nəzərdə tutulan halda Emitent dividentlər üzrə faiz ödənişi zamanı qanunvericiliklə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.1.22-ci maddəsinə əsasən, 2016-cı il fevralın 1-dən etibarən 7 (yeddi) il müddətində yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır.

Həmin Məcəllənin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır.

Azərbaycan Respublikası Mülki Məcəllənin 997.2-ci maddəsinə əsasən, istiqrazlar və səhmlər investisiya qiymətli kağızlarıdır. Həmin Məcəllənin 1077.1-ci maddəsinə əsasən, səhm mülkiyyətçisinin həmin səhmin nominal dəyərinə mütənasib surətdə səhmi buraxmış səhmdar cəmiyyətinin nizamnamə kapitalında iştirakını, mənfəətindən dividendlər, ləğvindən sonra isə qalan əmlakının hissəsini almaq hüququnu, həmçinin səhmdar cəmiyyətinin idarə olunmasında iştirak etmək hüququnu təsdiqləyən investisiya qiymətli kağızıdır.

Anderrayter xidmətləri üçün tutulacaq komissiya 0.5 % təşkil edir. Komissiya hər əqdin məbləğindən emitent tərəfindən ödənilir.

**3.20. Səhmləri öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyanın nömrəsi, verilmə tarixi), xidmət haqqı:**

Səhmlərin öhdəlik götürmədən yerləşdirilməsi üzrə «Unicapital» İnvestisiya Şirkəti Açıq Səhmdar Cəmiyyəti anderayter təyin edilmişdir.

Anderrayter barədə məlumat hazırkı Emissiya Prospektinin "Xülasə" hissəsinin 5.1-ci və 5.8-ci bəndlərində açıqlanır.

## 4. TİCARƏTƏ BURAXILMA VƏ ONUN TƏNZİMLƏNMƏSİ

**4.1. Səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:**

Səhmlərin yerləşdirilməsi, listinqi və tədavülü Bakı Fond Birjasında aparılacaqdır.

**4.2. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:**

Səhmlərin yerləşdirilməsi "Bakı Dond Birjası" QSC-nin ticarət platformasında həyata keçirilir və alğı-satqı əqdləri Bakı Fond Birjası vasitəsilə bağlanılır. Bununla bağlı müraciət maliyyə bazarlarına nəzarət orqanı tərəfindən bu səhmlərin buraxılışının dövlət qeydiyyatı və emissiya prospekti təsdiq edildikdən sonra baş tutmalıdır.
Bakı Fond Birjasında alğı-satqı əqdləri bu səhmlərin Bakı Fond Birjasının daxili qaydalarına əsasən kütləvi ticarətə qəbulundan sonra həyata keçirilir.

4.3. **Market meyker(lər) barədə məlumat (olduqda):**
Bazar şəraitini nəzərə alaraq, emitent səhmlərin likvidliyinin qorunması məqsədi ilə marketmeyker təyin edə bilər. Bu barədə Bakı Fond Birjasının saytında məlumat açıqlanacaqdır.

4.4. **Səhmlərin qiymətinin sabitləşdirməyə yönəlmiş əqdlərin bağlanması:**
Nəzərdə tutulmamışdır.

## 5. TƏKLİF EDİLƏN SƏHMLƏRİN MÜLKİYYƏTÇİLƏRİ HAQQINDA MƏLUMAT

Belə məlumat mövcud deyil.

## 6. EMİSSİYA XƏRCİ

6.1. **Emissiyanın həyata keçirilməsindən nəzərdə tutulan xərclər və cəlb olunacaq vəsaitlərin xalis məbləği:**
Bakı Fond Birjasının səhmlərinin yerləşdirilməsi üzrə komissiyası 500 (min. 0.5 – max. 500 AZN). Komissiya haqqı əqdin həcmindən asılı olaraq emitent tərəfindən ödənilir.
Milli Depozit Mərkəzində səhmlərin saxlanması və reyestrinin aparılması üzrə xidmətlərin göstərilməsinə görə emitent tərəfindən səhmin nominal dəyərinin nominal dəyərin 0,02%-i, (minimum 50, maksimum 5000) ödənilir. Ödəniləcək məbləğ ƏDV daxil – 2380 manat.
Anderrayter xidmətləri üçün tutulacaq komissiya emissiya həcmindən 0.5% təşkil edir. Komissiya hər əqdin məbləğindən emitent tərəfindən ödənilir.
Emissiyanın həyata keçirilməsi nəticəsində cəlb olunacaq vəsaitlərin xalis maksimum məbləği 6 800 000 (altı milyon səkkiz yüz min) manatdır.

## 7. PAYIN AZALMASI

7.1. Yeni səhm təklifi nəticəsində mövcud səhm mülkiyyətçilərinin paylarında olan dəyişmə ehtimalları:
Səhmlər kütləvi təklif edilir. Lakin, emitentin səhmdarları öz üstünlük hüquqlarından səhmlərin Bakı Fond Birjasında yerləşdirilməsinə başlandığı tarixindən ilk 2 (iki) iş

günü ərzində istifadə edərək öz paylarına mütənasib qaydada yeni buraxılan səhmləri əldə edə bilərlər. Bankın mövcud səhmdarları üstünlük hüquqlarından istifadə etmədikdə abunə yazılışına yazılmış investorlar növbəlilik qaydasında səhmləri əldə edə bilər.

## ƏLAVƏLƏR

## AUDİT OLUNMUŞ MALİYYƏ HESABATLARI